Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

# Mədəniyyət

www.medeniyyet.az

11 APREL 2018
28 [1518]

# "Turizmin inkişafına daha sistemli şəkildə baxmalıyıq"

Prezident İlham Əliyev aeroportlarda və sərhəd-keçid məntəqələrində pozuntuların qəti şəkildə aradan qaldırılması və turistlər üçün maksimum rahat şərait yaradılması barədə aidiyyəti qurumlara tapşırıqlar verib



2

## Tbilisidən mükafatlarla qayıdıblar

7

Tbilisidə Yevgeni Mikeladze adına Orkestr alətləri üzrə gənc musiqi ifaçılarının III Beynəlxalq müsabiqəsi keçirilib. Müsabiqədə ölkəmizi Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi, L. və M.Rostropoviçlər adına 21 saylı 11 illik Musiqi məktəbi və 24 saylı 11 illik Musiqi məktəbinin şagirdləri təmsil ediblər. Məktəblilərimiz müsabiqədə yüksək yerləri tutublar.



## Azərbaycan Turizm Şurasının növbəti iclası keçirilib

5

Bakı Biznes Mərkəzində Azərbaycan Turizm Şurasının yeddinci iclası keçirildi. Qeyd olundu ki, bu ilin ilk üç ayında Azərbaycana gələn xarici qonaqların sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 12 faizdən çox artıb. Novruz bayramı günlərində təkcə qonşu İrandan ölkəmizə 71 min nəfər turist gəlib. Bildirildi ki, "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin icrası istiqamətində Turizm Şurasının müvafiq işçi qrupları da fəaliyyətlərini davam etdirir, bu sahədə qarşıya çıxan məsələlər operativ şəkildə həllini tapır.



8

## Bakıda növbəti görüşədək...

Turizm sərgisinə kim niyə gedir? Yəqin ki, hərənin öz səbəbi var. Bizim 17-ci dəfə keçirilən Azərbaycan Beynəlxalq "Turizm və səyahətlər" sərgisinə üz tutmağımız, ilk növbədə, jurnalist marağı idi. Bu dəfə sərgiyə kimlər təşrif buyurub, hansı ölkənin turoperatorları təzə nə təklif edir və s. Bakı Ekspo Mərkəzindəki sərgi meydançasında yerli turizm agentliklərinin artımı göz qabağındadır. Üstəlik, aviaşirkət stendlərinin qarşısındakı qələbəlik, bilet bronlaşdıran, uçuş şərtləri ilə maraqlanan soydaşlarımızın çoxluğu vətəndaş olaraq adamı sevindirir...



6

## Tarixi irsə diqqət və qayğı

Goranboy rayonunda aşkar edilən arxeoloji abidə tədqiq və konservasiya olunacaq, ərazidən çəkilən boru kəmərinin marşrutu isə dəyişdirilib

## Bu gün Azərbaycanda prezident seçkiləri keçirilir

Aprelin 11-də Azərbaycanda prezident seçkiləri keçirilir. Mərkəzi Seçki Komissiyasının məlumatına əsasən, səsvermə 125 seçki dairəsi üzrə 5641 seçki məntəqəsində aparılacaq.

Prezident seçkilərini 894 beynəlxalq müşahidəçi izləyəcək. Onlar 61 beynəlxalq təşkilatı təmsil etməklə 59 ölkənin vətəndaşlarıdır. Akkreditə olunmuş yerli müşahidəçilərin sayı isə 58 mindən çoxdur. Seçkiləri 51 xarici kütləvi informasiya vasitəsindən 118 təmsilçi işıqlandıracaq.

Qeyd edilib ki, 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb. Bu isə seçki məntəqələrinin 18 faizini əhatə edir. Veb-kameralar vasitəsilə bütün seçki prosesi onlayn rejimdə nümayiş etdiriləcək. Dünyanın istənilən yerindən MSK-nın saytına daxil olub heç bir məhdudiyyət olmadan seçki prosesini izləmək mümkündür.

## "Elm günü" təsis olunub

Martın 27-si Azərbaycanda "Elm günü" kimi qeyd ediləcək. Prezident İlham Əliyev aprelin 9-da cəmiyyətin inkişafında elmin əhəmiyyətini nəzərə alaraq bu tarixin Azərbaycan Respublikasında "Elm günü" kimi qeyd edilməsi barədə sərəncam imzalayıb.

Qeyd edək ki, 27 mart 1945-ci ildə Azərbaycanda Elmlər Akademiyası fəaliyyətə başlayıb. SSRİ-nin müsəlman respublikaları arasında ilk Elmlər Akademiyası Azərbaycanda yaranmışdı.

## Məşhur opera müğənniləri Bakıda çıxış edəcəklər

Rusiyanın tanınmış opera müğənniləri Yana Melikayeva və Askar Abdrazakov iyunun 1-də Bakıdakı Heydər Əliyev Mərkəzində konsert proqramı ilə çıxış edəcəklər. Proqram klassik musiqisevərlər üçün harmonik və unikal səslər, bənzərsiz ifalar dinləmək imkanı yaradacaq.

Heydər Əliyev Mərkəzindən bildirilib ki, Yana Melikayeva və Askar Abdrazakov tamaşaçılara müxtəlif operalardan ariyalar, romanslar təqdim edəcəklər. Bəzi əsərlər duet şəklində ifa olunacaq. Solistləri Fuad İbrahimovun dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri müşayiət edəcək.

### Allah rəhmət eləsin

Mədəniyyət və Turizm Nazirliyinin rəhbərliyi və kollektivi Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanova atası

**Sultanov İmran Darab oğlunun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

* * *

Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin kollektivi xidmətin rəisi Zakir Sultanova atası

**Sultanov İmran Darab oğlunun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

* * *

Gəncə Regional Mədəniyyət və Turizm İdarəsinin rəhbərliyi Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanova atası

**Sultanov İmran Darab oğlunun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

* * *

"Mədəniyyət" qəzetinin kollektivi Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanova atası

**Sultanov İmran Darab oğlunun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.



**Ölkəmizdə ümumi inkişaf dinamikası çox müsbətdir. Ölkəmiz dünyada daha çox tanınır və turistlərin sayı getdikcə artır, birinci rübdə 12,5 faiz artmışdır. Əgər biz əvvəlki illəri də nəzərə alsaq görərik ki, bu dinamikada ardıcıllıq vardır.**

# "Turizmin inkişafına daha sistemli şəkildə baxmalıyıq"

### Prezident İlham Əliyev aeroportlarda və sərhəd-keçid məntəqələrində pozuntuların qəti şəkildə aradan qaldırılması və turistlər üçün maksimum rahat şərait yaradılması barədə aidiyyəti qurumlara tapşırıqlar verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sözləri aprelin 9-da Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında deyib.

Dövlət başçısı vurğulayıb ki, 2017-ci il ölkəmizdə dərin iqtisadi islahatlar və sabitləşmə ili olub. Ötən il qeyri-neft sektorunun inkişafında müsbət nəticələr əldə edilib: "2018-ci ilə gəldikdə, bu, uğurlu və sürətli inkişaf ili olacaqdır. Birinci rübün yekunları, sosial-iqtisadi göstəriciləri mənim sözlərimi təsdiqləyir. Birinci rübdə Azərbaycan iqtisadiyyatı 2,3 faiz artmışdır. Bu, çox gözəl göstəricidir. Qeyri-neft sektorumuz isə təxminən 3 faiz artmışdır. Bu da iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində aparılan siyasətin nəticəsidir".

Prezident qeyd edib ki, ölkəmizdə turizmin inkişafına zəmin yaradan əsas səbəblər Azərbaycanda hökm sürən sabitlik, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi, tarixi abidələrimiz, infrastruktur, 6 beynəlxalq aeroport, yollar, hotellərdir. Eyni zamanda ölkəmizdə keçirilən beynəlxalq tədbirlər Azərbaycanı dünyaya təqdim edir. Ölkə başçısı bununla bağlı aprelin sonunda Bakıda üçüncü dəfə keçiriləcək Formula 1 yarışlarını xüsusi qeyd edib: "Bu yarışlar şəhərimizin mərkəzində keçirilir. Biz onu xüsusilə belə təşkil etmişik ki, şəhərimiz göstərilsin, bu yarışa baxan azarkeşlər təkcə o yarışı görməsinlər, şəhərimizin gözəlliyini, müasirliyini görsünlər və daha çox Azərbaycana turist kimi gəlsinlər".

Prezident bildirib ki, Azərbaycanda turizmin inkişafı sürətlə gedir və biz bundan sonra bu sahəyə daha sistemli şəkildə baxmalıyıq. Biz indi elə bir şərait yaratmışıq ki, Azərbaycanı dünyada çox yaxşı tanıyırlar, bizim çox gözəl beynəlxalq imicimiz var. Viza rejimi sadələşdirilib, 90-dan çox ölkənin vətəndaşları vizanı aeroportlarda alırlar. Bu sahədə də təkmilləşmə işləri aparılacaq: "Əfsuslar olsun ki, bu sahədə çox böyük pozuntular olmuşdur. Biz vizaları ləğv etdik. Çünki aeroportlarda gələn turistlərə əziyyət verirdilər, əsassız pul tələb edirdilər. Bu biabırçılığı yığışdırmışıq. Bu biabırçılığı, bu pozuntuları, bu cinayəti törədənlər də cinayət məsuliyyətinə cəlb olunub. Hamı bilsin ki, bu cinayətlər cəzasız qalmayacaq. Ancaq biz elə bir sistem yaratmalıyıq ki, turistləri daha çox cəlb edək. İndi aeroportlarda yeni sistem yaradılır və gələn aydan başlayaraq tətbiq ediləcək. Bizim bütün sərhəd-keçid məntəqələrimizdə qonaqlar üçün maksimum rahat şərait yaradılmalıdır".

Dövlət başçısı bu məsələ ilə bağlı aidiyyəti qurumlara çox ciddi xəbərdarlıq etdiyini vurğulayıb: "Bu pozuntular yığışdırılmalıdır. Ölkəmizin imicinə xələl gətirən adamlar cəzalandırılacaqlar. Sərhəd-keçid məntəqələri elə olmalıdır ki, xaricdən gələn qonaq orada əziyyət çəkməsin. O ki qaldı, təhlükəsizliklə bağlı məsələlərə, indi bizim kifayət qədər imkanımız, texniki imkanlarımız var ki, öz təhlükəsizliyimizi qoruyaq. Ancaq bu, səbəb, bəhanə olmamalıdır ki, sərhədlərdə növbələr yaradılsın və o növbələri keçmək üçün kimdənsə nə isə qopardılsın".

Prezident bəzən hüquq-mühafizə orqanları işçilərinin hotellərə gəlib əsassız müdaxilə etməsi hallarına qəti şəkildə son qoyulmasını tələb edib: "Guya ki, onlar burada hansısa normaları gözləyirlər. Onun arxasında yenə də təmənna, pul qoparmaq, cibini doldurmaq niyyəti var. Buna son qoyulmalıdır. Mən bu barədə dəfələrlə demişəm və bir daha deyirəm, turizm potensialına malik olan hər bir ölkə çalışır ki, turistləri cəlb etsin, onlar üçün şərait yaratsın. Biz son vaxtlara qədər oturub gözləyirdik ki, kimsə gəlib qapımızı döysün. Vətəndaş vizanı almaq üçün bizim səfirliklərə gedirdi, orada da onları incidirdilər, onların qarşısına müxtəlif əsassız tələblər qoyurdular. Bu vizaları ləğv etdik. Ləğv edəndən sonra indi 90-dan çox ölkənin vətəndaşları gəlib vizanı aeroportda alırlar".

Prezident bildirib ki, görülən bu tədbirlərə rəğmən hələ də aeroportlarda xaricdən gələn qonaqlara qarşı təmənna xətrinə problemlər yaradılır, fotoşəkil tələb olunur, yaxud da növbədənkənar keçmək üçün pul istənilir: "Çox ciddi tədbirlər görülüb və bir daha demək istəyirəm ki, əgər bu sahədə və hər hansı bir başqa sahədə bu pozuntular olarsa və ümumiyyətlə rüşvətxorluqla bağlı əgər bundan sonra bu özbaşınalıq davam edərsə, çox ciddi tədbirlər görüləcək, heç bir keçmiş xidmət nəzərə alınmadan bütün məsul şəxslər cəzalandırılacaqlar".

Dövlət başçısı diqqətə çatdırıb ki, turizmlə bağlı atılacaq əlavə addımlar dəmir yolu ilə bağlıdır: "Mən bu layihəni artıq bəyan etmişəm. Biz bu il Qəbələ şəhərinə dəmir yolu çəkməyə başlayırıq. Bu, o bölgəyə turist axınını təmin edəcək. Bu il Qusar rayonuna dəmir yolunun çəkilməsi ilə bağlı tədqiqatlar, sənədləşmə işləri, texniki-iqtisadi əsaslandırma aparılır. Yəqin ki, gələn ildən başlayaraq biz bu dəmir yollarını əsas turizm yerlərinə çəkəcəyik".

## "Gənclərə dəstək" layihəsində daha iki konsert

Aprel ayında M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Gəclərə dəstək" layihəsi çərçivəsində iki konsert proqramı təqdim ediləcək.

Aprelin 17-də təqdim olunacaq birinci konserti Ağaverdi Paşayevin dirijorluğu ilə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri, aprelin 19-da isə Orxan Həşimovun dirijorluğu ilə Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri müşayiət edəcək. Layihə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, "Mədəniyyət" kanalı və filarmoniyanın birgə təşkilatçılığı ilə həyata keçirilir.

## Fransalı cazmen "YARAT"ın səhnəsində

Aprelin 12-də "YARAT" Müasir İncəsənət Mərkəzində Fransanın ölkəmizdəki səfirliyi və Azərbaycanda Fransız İnstitutunun birgə təşkilatçılığı ilə "Mugham Souls" adlı konsert proqramı təqdim olunacaq. "Frankofoniya həftələri" çərçivəsində təşkil olunan konsertdə Fransanın tanınmış caz ifaçısı Pyer de Treqoman və azərbaycanlı xanəndə Qoçaq Əsgərov çıxış edəcək.

# Qarşılıqlı turist axınını təşviq etmək üçün birgə səy göstərməliyik

## Azərbaycanla Özbəkistanın bu sahədə əməkdaşlığı üçün geniş imkanlar mövcuddur

**Aprelin 10-da mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Özbəkistan Ali Məclisi Qanunvericilik Palatasının sədr müavini Sarvar Otomuradovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazir qonaqları salamlayaraq ölkələrimiz arasında mədəniyyət və turizm əlaqələrinin inkişaf etdirilməsi, turistlərin cəlb olunması istiqamətində əməkdaşlığın sürətləndirilməsi üçün görüşlərin keçirilməsinin vacibliyini vurğulayıb.

Sarvar Otomuradov Özbəkistanın turizm bazarı üçün Azərbaycanın prioritet istiqamətlərdən biri olduğunu və turist mübadiləsinin xüsusi əhəmiyyətini qeyd edib.

Əbülfəs Qarayev ölkəmizin müxtəlif turizm imkanlarının, o cümlədən sağlamlıq turizmi, qış turizmi və s. sahələrin özbək turistləri Qalaaltı, Naftalan, Duzdağ, Şahdağ və s. istiqamətlərə cəlb edə biləcəyini bildirib. Qeyd edilib ki, bu məqsədlə hər iki ölkəyə infoturların təşkili turistlərin cəlb olunması, turizm potensialının təbliği istiqamətində effektiv ola bilər.

Həmçinin nazir Özbəkistanın paytaxtı Daşkənddə Azərbaycan Mədəniyyət Mərkəzinin fəaliyyət göstərdiyini və burada ölkəmizin mədəniyyəti ilə bağlı bir sıra tədbirlərin, sərgilərin keçirildiyini diqqətə çatdırıb.

Turizmin inkişafı ilə bağlı ölkəmizdə görülən tədbirlərdən söz açan nazir Azərbaycan Turizm Assosiasiyasının, Konqreslər Bürosunun, Milli Turizm Təbliğat Bürosunun fəaliyyət istiqamətləri barədə, turizmdə kadr hazırlığı və Azərbaycan Turizm və Menecment Universitetinin fəaliyyəti haqqında məlumat verib.

Görüşdə Özbəkistanla Azərbaycan arasında birbaşa uçuşların mövcudluğu nəzərə



alınaraq, birgə turist paketlərinin hazırlanması, çarter reyslərin açılması, qarşılıqlı turist axınının stimullaşdırılması ilə bağlı təkliflər səsləndirilib. Qonaq Özbəkistanın Turizmin İnkişafı üzrə Dövlət Komitəsi ilə hüquqi baza əsasında əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Əbülfəs Qarayev mədəniyyət və turizm sahəsində əlaqələrə nazirlik tərəfindən hər zaman dəstək veriləcəyini söyləyib.

Görüşdə Özbəkistan Respublikasının ölkəmizdəki səfiri Şerzod Fayziyev iştirak edib.

# "Ortaq türk ədəbiyyatı" dərsliyi hazırlanacaq

## "Ortaq türk tarixi" isə artıq Türkiyədə tədris proqramına daxil edilib

**Qazaxıstanın paytaxtı Astanadakı Beynəlxalq Türk Akademiyasında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızısan) üzv dövlətlərin ədəbiyyat mütəxəssisləri "Ortaq türk ədəbiyyatı" tədris proqramı layihəsini müzakirə ediblər.**



Akademiyanın prezidenti Darxan Kıdıralı bildirib ki, Türk Şurasının Astanada keçirilən son sammitinin qərarına uyğun olaraq Beynəlxalq Türk Akademiyası tərəfindən "Ortaq türk tarixi", "Ortaq türk ədəbiyyatı" və "Ortaq türk coğrafiyası" dərsliklərinin hazırlanması məsələ kimi qarşıya qoyulub. Akademiya tərəfindən hazırlanan və XV əsrədək olan dövrü əhatə edən "Ortaq türk tarixi" dərsliyi gələn tədris ilindən Türkiyədə Təhsil Nazirliyi tərəfindən 8-ci sinif proqramına daxil edilib. D.Kıdıralı dərsliyin, həmçinin Qazaxıstanda Nazarbayev adına intellektual məktəblərdə istifadə olunduğunu, Azərbaycan, Qazaxıstan və Qırğızıstanın bütün məktəblərində tətbiq ediləcəyinə ümidvar olduğunu söyləyib.

Keçən ilin sentyabrında başa çatan "Ortaq türk tarixi" dərsliyi layihəsinin bu il Türk Şurası dövlət başçıları sammitinin təsdiqinə təqdim edilməsi gözlənilir.

Bildirilib ki, "Ortaq türk ədəbiyyatı" tədris proqramı layihəsi Türk Şurasına üzv dövlətlərin təhsil nazirləri tərəfindən qəbul olunduqdan sonra dərsliyin hazırlanması nəzərdə tutulur.

Bundan başqa, gələcəkdə "Ortaq türk coğrafiyası" dərsliyi layihəsinin həyata keçirilməsi planlaşdırılır.

# Avstriyalı və azərbaycanlı tələbə rəssamların "Uçan xalça"sı




Aprelin 12-də Avstriyanın paytaxtı Vyanada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində iki ölkənin tələbə rəssamlarını birləşdirən "Uçan xalça" sərgisinin açılışı keçiriləcək. Sərginin təşkilatçıları Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Xalça Muzeyi, Avstriyadakı Azərbaycan Mədəniyyət Mərkəzi və Vyana Tətbiqi Sənət Universitetidir.

"Uçan xalça" sərgisi "Crossing" ("Kəsişmə nöqtəsi") layihəsinin yekun hissəsidir. Azərbaycan və Avstriyadan olan tələbələr müxtəlif texnikalarda ərsəyə gətirdikləri bu layihə üzərində yeddi ay ərzində işləyiblər. Layihənin məqsədi xalçaçılıqda dövrlərin bir-biri ilə əlaqəsinin aşkara çıxarılması və bu sənətin ənənələrinin qorunub inkişaf etdirilməsidir. Tələbələr öz fantaziyalarını, bədii obrazları ənənəvi arxetiplərə gedib çıxan müasir incəsənətin müxtəlif istiqamətlərində işləmək bacarığını nümayiş etdiriblər. Eksperiment kimi XIX əsrə aid, qismən tələbələr tərəfindən bərpa edilmiş Azərbaycanın nəfis xovsuz xalçalarından biri olan "Sumax" xalçası götürülüb.

Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində sərgi 10 may tarixinədək davam edəcək.

# Gürcüstan Gənc Tamaşaçılar Teatrının yubiley tədbirinə dəvət

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının (ADGTT) aktyoru İlham Əsədov aprelin 13-dən 19-dək Gürcüstan Dövlət Peşəkar Gənc Tamaşaçılar Teatrının 90 illik yubiley tədbirlərində iştirak etmək üçün dəvət alıb.

Teatrın mətbuat xidmətindən bildirilib ki, iki sənət ocağının əlaqələri uğurla davam edir.

Gənc Tamaşaçılar Teatrı qarşılıqlı qastrol səfərləri ilə bağlı müqaviləyə əsasən ötən ilin aprel ayında Gürcüstan Dövlət Peşəkar Gənc Tamaşaçılar Teatrının səhnəsində "Dəcəl keçi" tamaşası ilə çıxış edib.

# "Batalyon" universitetdə nümayiş olunub

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) Əməkdar incəsənət xadimi, rejissor Nizami Abbasın "Batalyon" sənədli filmi nümayiş olunub.



Mədəniyyət və Turizm Nazirliyinin "Yaddaş" studiyası tərəfindən hazırlanan film Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlər aparmış Tərtər batalyonu haqqındadır. Filmin çəkilişləri Ağdərə rayonunun düşmən işğalından azad olunan ərazilərində aparılıb.

Universitetin Kino və televiziya fakültəsinin dekanı, dosent Mübariz Məmmədli, professor Rafiq Quliyev film haqqında təəssüratlarını bölüşüb, rejissora minnətdarlıqlarını bildiriblər. Qeyd edilib ki, filmdə vətənpərvərlik hisləri tamaşaçıya çox təsirli və səmimi şəkildə çatdırılır.

# Mərakeş etnik musiqisi səsləndiriləcək

Beynəlxalq Muğam Mərkəzinin "Etnik musiqi inciləri" layihəsi çərçivəsində növbəti konsert Mərakeş etnik musiqisinə həsr olunub.

Aprelin 19-da Mərakeş səfirliyinin dəstəyi ilə reallaşacaq konsertdə Maalem Xoussam Quinia öz qrupu ilə Qnava üslubunda ifa nümayiş etdirəcək. Qnava üslubu Mərakeşin mədəni irsinin əsas istiqamətlərindəndir. Afrika, əsasən də Mərakeş folkloruna aid bu ənənəvi musiqi qitənin qəbilələrinin mətn, mahnı və rəqslərindən ibarət kompozisiyadır.

Bu musiqi ənənəsini beynəlxalq səviyyəyə "Led Zeppelin" qrupundan məşhur ifaçılar Cimmi Peyc və Robert Plant, bəstəkar Adam Rudolf, caz pianoçusu və bəstəkar Rendi Veston, bas gitaraçı Bill Lasvel çıxarıb. Bu il "İnnov Qnava" qrupu "Qremmi" mükafatının "Ən yaxşı rəqs" nominasiyasına layiq görülüb. Mərakeşin Essauriya şəhərində hər il Qnava Beynəlxalq Musiqi Festivalı keçirilir.

# İndoneziya ilə mədəniyyət və turizm sahələrində əməkdaşlıq müzakirə olunub

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev İndoneziya xarici işlər nazirinin müavini Abdurrahman Mohammad Fachir ilə görüşüb.

Görüşdə iki ölkə arasında mədəniyyət və turizm sahələri üzrə əməkdaşlıq məsələləri, o cümlədən müvafiq hüquqi baza, hər iki ölkədə keçirilən tədbirlərdə qarşılıqlı iştirak, turist mübadiləsi və birgə layihələr barədə fikir mübadiləsi aparılıb.

Qeyd olunub ki, İndoneziya mədəniyyətinin təbliği istiqamətində ölkəmizdə keçirilən tədbirlər, o cümlədən bu ölkənin Azərbaycandakı səfirliyinin təşəbbüsü, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə artıq iki dəfə Bakıda təşkil olunan İndoneziya mədəniyyəti festivalı ikitərəfli əlaqələrə töhfə verir.

Həmçinin Azərbaycan və İndoneziya arasında birbaşa aviareyslərin açılması, müqəddəs yerlərin ziyarəti məqsədilə İndoneziyadan gələn turistlər üçün ölkəmizə səfərlə bağlı xüsusi turizm paketlərinin hazırlanması məsələsi müzakirə olunub.

# "Tristessa" müasir musiqi gecəsi keçiriləcək

**Aprelin 14-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında Qara Qarayevin 100 illiyinə həsr olunmuş festival çərçivəsində "Tristessa" müasir musiqi gecəsinin keçirilməsi nəzərdə tutulub.**

Konsert Azərbaycan Respublikası Prezidentinin "Qara Qarayevin 100 illik yubileyi haqqında" 17 oktyabr 2017-ci il tarixli sərəncamının icrasının təmin edilməsi məqsədilə Mədəniyyət və Turizm Nazirliyinin təsdiq etdiyi Tədbirlər planına əsasən gerçəkləşəcək.

Gecədə Əməkdar artist, dirijor Fuad İbrahimovun rəhbərliyi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və Əməkdar artist Fəridə Məmmədova çıxış edəcək.

Proqramda görkəmli Avstriya bəstəkarı Alban Berqin soprano və orkestr üçün "Lulu" süitası və Əməkdar incəsənət xadimi, professor Fərəc Qarayevin orkestr üçün "Tristessa I" ("Vida") simfoniyası səslənəcək.




Fərəc Qarayev orkestr üçün "Tristessa I" simfoniyasını 1982-ci ildə yazıb. Əsər dahi Azərbaycan bəstəkarı Qara Qarayevə həsr edilib və partiturasında "Atama. Müəllimimə. Dostuma ithaf" yazılıb. Simfoniyada sitat kimi Qara Qarayevin bir neçə fortepiano prelüdündən istifadə edilib. Əsərin sonunda musiqiçilər səhnəni tədricən tərk edirlər, bu da Y.Haydının məşhur "Vida" simfoniyasına bir növ allüziyadır. Əsər ilk dəfə 1983-cü ildə dirijor Rauf Abdullayevin idarəsi altında səslənib və böyük əks-səda doğurub.

Alban Berq (1885-1935) tanınmış Avstriya bəstəkarı, pedaqoqu, alman ekspressionizmi və Yeni Vyana Məktəbinin nümayəndələrindən biridir. O, A.Şönberqin tələbəsi və onun yaradıcılığının fəal təbliğatçısı olub, ilk əsərlərini dodekafon texnikasında yazıb. Yaradıcılığı XX əsr bəstəkarları D.Şostakoviç, Q.Qarayev, E.Denisov, A.Şnitke və başqalarına böyük təsir göstərib. A.Berqin beş hissədən ibarət soprano və orkestr üçün "Lulu" süitası 1934-cü ildə bəstəkarın eyniadlı operasından konsert ifası versiyası şəklində işlənib. Əsər bəstəkarın müəllimi və dostu A.Şönberqin 60 illiyinə həsr edilib.

# Beynəlxalq Muğam Mərkəzində "Dastan gecələri" başlayır




Aprelin 18-də Beynəlxalq Muğam Mərkəzi "Dastan gecələri" adlı yeni layihəyə başlayır.

Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu ilə birgə reallaşacaq layihə şifahi xalq ədəbiyyatının ən önəmli nümunələrindən olan aşıq yaradıcılığı və şifahi poeziya nümunələrini özündə birləşdirir. Layihə çərçivəsində müasir aşıq sənətinin tanınmış nümayəndələrinin ifasında Azərbaycan dastanlarından bəzi örnəklər sənətsevərlərə təqdim olunacaq.

Layihənin ilk saz-söz axşamı "Alı xan və Pəri xanım" dastanına həsr olunacaq.

# III Buktreyler festivalına işlərin qəbulu başa çatıb




Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi ilə keçirilən III Buktreyler festivalına işlərin qəbulu aprelin 8-də başa çatıb. Kinoaktyor, prodüser Ruslan Sabirlinin müəllifi və təsisçisi olduğu, "Kitabı tanıdın, kitabla tanının" sloqanlı festivalın məqsədi kitab və mütaliənin cəmiyyətimizdə təbliği, mütaliəyə münasibətin yaradıcı formalarının inkişafı və dəstəklənməsi, kino sahəsində istedadlı və yaradıcı gənclərin üzə çıxarılması, buktreylerlərin incəsənət və biznesdə bir istiqamət kimi inkişafıdır.

Təşkilat komitəsi tərəfindən buktreylerlərə baxış keçirilir, təqdim olunan işlərin festivalın tələblərinə uyğunluğu yoxlanılır. Bu prosedurdan sonra buktreylerlər münsiflər heyətinə təqdim ediləcək.

Festival barədə www.booktrailer.az saytında ətraflı məlumat almaq olar.

# Tanınmış pianoçu Adilə Əliyevanın ustad dərsləri

Mədəniyyət və Turizm Nazirliyi uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində təhsilin keyfiyyətinin yüksəldilməsi, müəllimlərin peşəkarlığının artırılması və onlara metodiki köməklik göstərilməsi məqsədilə mütəmadi olaraq müxtəlif ixtisaslar üzrə ustad dərsləri təşkil edir.

Nazirliyin dəvəti ilə Fransada yaşayan həmyerlimiz, Azərbaycanın Əməkdar artisti, Fransa Ali Beynəlxalq Musiqi Akademiyasının direktoru, professor Adilə Əliyeva tərəfindən 16-20 aprel tarixində uşaq musiqi və incəsənət məktəblərinin müəllim və şagirdləri üçün fortepiano ixtisası üzrə ustad dərslərinin keçirilməsi planlaşdırılır.

Ustad dərsləri 16 apreldə Bakı şəhər L. və M. Rostropoviçlər adına 21 nömrəli Musiqi məktəbində, 18 apreldə Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində, aprelin 20-də G.Şaroyev adına 35 nömrəli Musiqi məktəbində keçiriləcək.



# "Aktyor əbədiyyətə qovuşanda"

## Şuşa teatrının yeni tamaşası



Aprelin 13-də Teatr Xadimləri İttifaqının M.Mərdanov səhnəsində Şuşa Dövlət Musiqili Dram Teatrının "Aktyor əbədiyyətə qovuşanda" tamaşasının premyerası olacaq.

Teatrdan bildirilib ki, psixoloji dram janrında olan birhissəli tamaşa xorvat yazıçısı və dramaturqu Miro Qavranın əsəri əsasında hazırlanıb. Pyesi Azərbaycan dilinə Svetlana Həkimova tərcümə edib.

Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Nazir Rüstəmovdur. Səhnə əsərində Nazir Rüstəmov və Bahar Abdullayeva çıxış edəcəklər.

# Turistlər üçün istənilən yerdə fasiləsiz və sürətli internet

## "WokiFi" layihəsi start götürüb

Azərbaycan Konqreslər Bürosunun (AKB) "Simbrella" şirkəti ilə birgə təşəbbüsü olan "WokiFi" layihəsi 2018-ci ilin əvvəlində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Mədəniyyət və Turizm Nazirliyinin birgə dəstəyi sayəsində start götürüb.

Layihə turistlərə və mehmanxana qonaqlarına portativ Wi-Fi təminatlı 4G cihazlarını icarəyə götürməyə imkan verir.

"Simbrella" şirkətinin hazırladığı proqram təminatına malik olan mövcud xidmətin unikallığı ondadır ki, qonaqlar ölkəmizin istənilən nöqtəsində ayrıca internet xidmətindən istifadə etmək imkanı qazanacaqlar. Bu cihazı icarəyə götürməklə, fasiləsiz və sürətli internetdən maşında, küçədə, təbiət qoynunda, hətta çimərlikdə də istifadə etmək olar. Yüksək sürətli portativ Wi-Fi qurğusuna eyni zamanda beş cihazın qoşulması mümkündür.

Turistlər və qonaqlar məhsuldan istifadəyə başlayarkən, təqdim edən hotelin səhifəsində xidməti aktivləşdirə və təklif edilən tarif planlarından birini seçə bilərlər. Xidmətə görə ödəniş, digər əlavə xidmət haqları kimi, hotelin hesab-fakturasına daxil edilir.

Hələlik layihə pilot mərhələsindədir və yalnız Bakının bəzi hotellərində təqdim edilir. Xidmətin tətbiqi ölkənin imicinə müsbət təsir göstərməklə, turistlərin nəzərində Azərbaycanın cəlbediciliyini daha da artıracaq və turizm sənayesi üçün əlavə mənfəət mənbəyi yaradacaq.



# Azərbaycan Turizm Şurasının növbəti iclası keçirilib

**2016-cı ilin sonunda yaradılan Azərbaycan Turizm Şurasının işi uğurla davam edir. Şura bu vaxtadək müxtəlif istiqamətlər üzrə 145 qərar qəbul edib, bu qərarlardan 107-si tam olaraq icra edilib. Bu sözləri Turizm Şurasının sədri, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev aprelin 6-da Bakı Biznes Mərkəzində Şuranın yeddinci iclasında dedi. İclasda ölkəmizdə səfərdə olan BMT-nin Dünya Turizm Təşkilatının (DTT) baş katibi Zurab Pololikaşvili də iştirak edirdi.**



Ölkəmizdə turizmin qeyri-neft sektorunun prioritet istiqamətlərindən biri olduğunu deyən nazir bu sahənin milli iqtisadiyyatın inkişafı üzrə Strateji Yol Xəritəsində mühüm yer tutduğunu diqqətə çatdırdı. Prezident İlham Əliyevin müvafiq fərmanı ilə təsdiq edilmiş "Turizm Şurası haqqında Əsasnamə"də qurumun qarşısında qoyulan məsələlərdən söz açan nazir bildirdi ki, qurumun yaradılmasında əsas məqsəd Azərbaycanda bu sahədə mövcud vəziyyətin təhlil edilməsi, problemlərin aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi, turizm sahəsində dövlət orqanlarına həvalə edilmiş vəzifələrin icrasının əlaqələndirilməsidir.

Əbülfəs Qarayev gündəlikdə duran məsələləri diqqətə çatdırdıqdan sonra ötən ilin turizm yekunları haqqında məlumat verdi. Bildirdi ki, 2017-ci ilin turizm göstəriciləri olduqca ürəkaçandır. Həmçinin Milli Turizm Təbliğat Bürosu, qısa zaman əvvəl yaradılmasına baxmayaraq, uğurla fəaliyyət göstərir. Ötən müddət ərzində Büro tərəfindən turizmin təbliği istiqamətində mühüm layihələr həyata keçirilib. Qeyd olundu ki, bu il Novruz bayramı günlərində paytaxtın Fəvvarələr meydanında təşkil edilən tədbirlərə ümumilikdə bir milyondan çox insan qatılıb.

Vurğulandı ki, ötən il ölkəmizə gələn turistlərin sayı 20 faiz artaraq 2 milyon 691 min 998 nəfər təşkil edib. Azərbaycana səfər edən xarici vətəndaşlar arasında ilk sıralarda Rusiya (853 min nəfər), Gürcüstan (537 min), İran (362 mindən çox), Türkiyə (300 mindən çox), Birləşmiş Ərəb Əmirlikləri (100 mindən çox) vətəndaşlarıdır. Sonrakı yerləri Ukrayna, İraq, Səudiyyə Ərəbistanı və digər ölkələr bölüşür. Ötən il ölkəmizə gələn xarici qonaqların bank xərcləri üzrə əməliyyatları 1 milyard manatdan çox olub. Nağdsız ödəmələrin miqdarı 70 faiz artıb.

Nazir 2018-ci ilin ilk üç ayında Azərbaycana gələn xarici qonaqların sayının ötən ilin müvafiq dövrü ilə müqayisədə 12 faizdən çox artdığını diqqətə çatdırdı. Bildirdi ki, Novruz bayramı günlərində təkcə qonşu İrandan ölkəmizə 71 min nəfər turist gəlib.

Qeyd olundu ki, "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin icrası istiqamətində Turizm Şurasının müvafiq işçi qrupları da fəaliyyətlərini davam etdirir, bu sahədə qarşıya çıxan məsələlər operativ şəkildə həll ini tapır.

Ölkəmizin turizm sənayesinin dünya turizminin tərkib hissəsi olduğunu deyən Əbülfəs Qarayev bildirdi ki, Azərbaycan bu sahədə beynəlxalq təşkilatlarda uğurla təmsil edilir. Prezident İlham Əliyevin turizm sahəsinə diqqət və qayğısı beynəlxalq qurumlar tərəfindən yüksək dəyərləndirilir.

Dünya Turizm Təşkilatının (DTT) baş katibi Zurab Pololikaşvili tədbirdə çıxış edərək bildirdi ki, Azərbaycanın böyük turizm potensialı var: "Sevindirici haldır ki, Prezident İlham Əliyev qeyri-neft sektorunun prioritet istiqaməti kimi turizm sənayesinin inkişafına xüsusi diqqət göstərir. Mən səfərim çərçivəsində çoxlu görüşlər keçirdim, tədbirlərdə iştirak etdim. Gördüklərim onu deməyə əsas verir ki, Azərbaycan yaxın gələcəkdə dünya turizm sənayesində özünəməxsus yer tutacaq".

Dünya dövlətlərinin turizm sənayesinin inkişafı üçün qarşılıqlı əlaqələrinin vacibliyini vurğulayan Zurab Pololikaşvili ölkəmizin də bu əməkdaşlıqda fəal olduğunu bildirdi. O, Turizm Şurasının yaradılmasını yüksək qiymətləndirdi, quruma gələcək fəaliyyətində uğurlar arzuladı.

Mədəniyyət və Turizm Nazirliyi İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri, Sağlamlıq turizmi üzrə işçi qrupun rəhbəri Vüqar Şixəmmədov qrupun gördüyü işlər barədə məlumat verdi. Bildirdi ki, ölkəmizdə sağlamlıq turizminin inkişaf etdirilməsinə Strateji Yol Xəritəsində də xüsusi yer ayrılıb. Sənədin müvafiq bəndlərinin icrası üçün Turizm Şurasının Sağlamlıq turizmi üzrə işçi qrupu (eləcə də Naftalan üzrə neft-tədqiqat qrupu) yaradılıb. Qrupun tərkibi Mədəniyyət və Turizm Nazirliyi, AMEA-nın akademik Yusuf Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, akademik A.Qarayev adına Fiziologiya İnstitutu, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası "Kurort" SC, İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər, Səhiyyə nazirlikləri, Sahibkarlığa Kömək Milli Fondu, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu, Naftalan Şəhər İcra Hakimiyyəti, Milli Turizm Təbliğat Bürosu və Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının nümayəndələrindən ibarətdir. Ölkəmizdə sağlamlıq turizminin texniki-iqtisadi baxımdan araşdırılmasının vacibliyini vurğulayan V.Şixəmmədov qeyd etdi ki, beynəlxalq sertifikatların əldə olunması bizim üçün daha aktualdır. Yaxın günlərdə ilkin olaraq Naftalan neftinin balneoloji tərkibi haqqında sertifikatın Mədəniyyət və Turizm Nazirliyinə təqdim olunması gözlənilir.

Mədəniyyət və Turizm Nazirliyi Turizm şöbəsinin Planlaşdırma və inkişaf sektorunun müdiri Mahir Qəhrəmanov Turizm sahəsində təhlükəsizlik üzrə işçi qrupunun həyata keçirdiyi işlər haqqında məlumat verdi.

Daha sonra Azərbaycan Konqreslər Bürosunun icraçı direktoru Ülviyyə Mirqasımova növbəti Bakı Şopinq Festivalının keçirilməsi, Şahdağ Turizm Mərkəzinin direktoru Rüstəm Nəcəfov qış turizm mərkəzlərində işgüzar tədbirlərin təşkil edilməsi barədə çıxış etdilər.

Şura üzvləri turizmin inkişaf etdirilməsi sahəsində qarşıda duran vəzifələr, gələcək fəaliyyətin təşkili, nəzərdə tutulmuş layihələr barədə fikirlərini bildirdilər. Daxili turizmin inkişaf etdirilməsi, yerli və xarici turistlər üçün cəlbediciliyin daha da artırılması, turizm infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı müzakirələr aparıldı.

Şuranın sədri Əbülfəs Qarayev iclasa yekun vuraraq qurumun bundan sonra da uğurlu fəaliyyət göstərəcəyinə əminliyini ifadə etdi.

**Fariz Hüseynov**

# Ölkəmizdə Bələdçilər Assosiasiyası yaradılıb

**Yerli və xarici turistlərə ölkəmiz, onun turizm imkanları barədə dolğun məlumatların verilməsi, turist məmnuniyyətinin təmin edilməsi və turistlərlə kommunikasiyanın düzgün qurulmasında turizm bələdçilərinin fəaliyyəti önəmli rol oynayır.**



Bununla bağlı aprelin 9-da "Hilton" mehmanxanasında Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Azərbaycan Turizm və Menecment Universitetinin nəzdində "Turizm bələdçilərinin və tərcüməçi-gidlərin Attestasiya Komitəsi"ndən bələdçi kartı almış bələdçilərin iştirakı ilə toplantı keçirilib.

Toplantını Mədəniyyət və Turizm Nazirliyi Turizm şöbəsinin müdiri Aydın İsmiyev açaraq, ölkəmizdə turizmin inkişafı, turizm sahəsi ilə bağlı yaradılmış assosiasiya və ictimai birliklər (Azərbaycan Turizm Assosiasiyası, Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək İctimai Birliyi, Kənd Yaşıl Turizminin İnkişafına Dəstək İctimai Birliyi) haqqında məlumat verib. Şöbə müdiri turizm bazarının genişlənməsi, ölkəmizdə fəaliyyət göstərən turizm bələdçilərinin sayının artması və bu sahədə görüləcək işlərin daha da sürətləndirilməsi məqsədilə Bələdçilər Assosiasiyasının yaradılması zərurətinin yarandığını qeyd edib.

Bu təkliflə bağlı bir neçə bələdçi çıxış edərək assosiasiyanın yaradılması məsələsini dəstəkləyib. Toplantıda iştirak edən 125 bələdçi tərəfindən təklif səsvermə yolu ilə dəstəklənib.

Toplantının davamı olaraq Bələdçilər Assosiasiyasının təsis konfransı keçirilib. İclası Təşəbbüs qrupunun sədri seçilmiş Əlixan Mürvətov aparıb. Səsvermə yolu ilə assosiasiyanın 9 nəfərdən ibarət İdarə heyəti müəyyən edilib.

Tədbirdə Azərbaycan Turizm Assosiasiyasının sədri Nahid Bağırov çıxış edərək yeni yaradılan Bələdçilər Assosiasiyasına ilkin mərhələdə təşkilati işlərin həyata keçirilməsində və gələcək fəaliyyətində dəstək göstərəcəklərini bildirib.

İclasın sonunda yeni yaradılmış assosiasiyanın dövlət qeydiyyatına alınması ilə bağlı İdarə heyətinin üzvləri tərəfindən müvafiq müraciətin edilməsi qərara alınıb.

Azərbaycan Bələdçilər Assosiasiyasının yaradılması ölkəmizin Dünya Turizm Bələdçiləri Assosiasiyaları Federasiyasına (WFTGA) üzv olunması, beynəlxalq standartlara cavab verən bələdçi və təlimçilərin hazırlanması, vahid ekskursiya mətnlərinin tərtibi, turizm bələdçilərinin elektron kataloqunun hazırlanması və turizm sənayesinin digər fəaliyyət sahələrinə öz müsbət töhfəsini verəcək.

## Özbəkistan portalı Naftalan nefti haqqında

Özbəkistanın kultura.uz portalı Naftalan nefti haqqında məqalə yayıb. Məqalədə möcüzəvi şəfası ilə bütün dünyada məşhur olan Naftalan neftinin tarixi, müalicəvi xüsusiyyətləri, Naftalanda fəaliyyət göstərən müasir hotel və sanatoriyalar barədə məlumat verilir.

Qeyd edilir ki, indiyədək Naftalana dünyanın müxtəlif yerlərindən insanlar gəlib şəfa tapıblar. Burada bir çox xəstəliklər müalicə edilir. Yazıda "Ağ Naftalan yağı" və onun əsasında yaradılan yeni preparatlardan da bəhs edilir.

# Tarixi irsə diqqət və qayğı

## Goranboy rayonunda aşkar edilən arxeoloji abidə tədqiq və konservasiya olunacaq, ərazidən çəkilən boru kəmərinin marşrutu isə dəyişdirilib



**Xəbər verdiyimiz kimi, "Cənubi Qafqaz boru kəmərinin (Azərbaycan qazının Gürcüstan üzərindən Türkiyəyə nəqli - Bakı-Tbilisi-Ərzurum qaz kəməri) genişləndirilməsi" layihəsi həyata keçirilən zaman Goranboy rayonunun Borsunlu kəndi ərazisində Orta əsrlərə aid böyük tarixi-mədəni əhəmiyyətə malik arxeoloji abidə aşkar edilib. Ötən ilin sonlarında Cənubi Qafqaz Boru Kəməri Şirkətinin (CQBKŞ) texniki operatoru olan BP və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arxeoloji abidənin aşkar edilməsi barəsində açıqlama verib və tapıntıların tam təhlil edilməsi üçün tərəflər arasında 2017-ci il dekabrın 14-də qarşılıqlı anlaşma memorandumu imzalanıb.**

Aprelin 7-də mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz, Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev və digər rəsmi şəxslər həmin arxeoloji qazıntı sahəsinə səfər edib, memorandum çərçivəsində aparılan əlavə qazıntı və araşdırma işlərinin gedişi ilə maraqlanıblar.

Məlumat verilib ki, tapıntılar Goranboy rayonunun Borsunlu kəndi yaxınlığında, Cənubi Qafqaz boru kəmərinin 247-ci kilometrliyində aşkarlanıb. Arxeoloji abidənin tarixi elmi əhəmiyyəti nəzərə alınaraq AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları əraziyə ezam olunublar. Kərpiclitəpə adlandırılan arxeoloji qazıntı sahəsində 10 nəfər arxeoloqdan və 12 nəfər köməkçi heyətdən ibarət olan ekspedisiya üzvləri tərəfindən ilk dəfə tədqiqat işlərinə başlanılıb. Qısa müddətdə təxminən 2 hektara yaxın abidə ərazisinin 300 kvadratmetrlik hissəsində qazıntı işləri aparılıb və zəngin tarixi-elmi məlumatlar əldə edilib.

Arxeoloji qazıntılar zamanı düzbucaqlı formalı, Aran memarlıq məktəbinə aid qəsrin qala divarları və bürcləri aşkarlanıb. Arxeoloji qazıntı sahəsindən tapılmış maddi-mədəni nümunələrə əsasən müəyyən edilib ki, İpək Yolu üzərində yerləşən bu feodal qəsrində təxminən XI-XII əsrlərdə intensiv yaşayış olub. Lakin mədəni təbəqələrdə rast gəlinən yanıq izləri qəsrin təxminən XIII əsrin ortalarına yaxın hansısa qısamüddətli müharibə nəticəsində yandırıldığını və dağıdıldığını söyləməyə imkan verir. Qazıntı işləri zamanı qəsrin daxilində kərpic bişirmək üçün böyük bir kürə, çoxlu sayda otaq, təsərrüfat quyuları, dulus sobaları, təndirlər, həmçinin digər yardımçı tikililər aşkarlanıb. Arxeoloji qazıntılar zamanı ərazidən çoxlu sayda maddi-mədəniyyət nümunələri və müxtəlif heyvan sümükləri üzə çıxarılıb.

Məlumat verilib ki, ekspedisiya üzvləri tərəfindən tapılan məişətdə işlədilən müxtəlif formalı şirli və şirsiz gil məmulatlar, şüşə və fayans qablar, çıraqlar, mürəkkəb qabları, numizmatika materialları, çəki daşı, bəzək əşyaları - muncuqlar, bilərziklər, su borusu, eləcə də metaldan düzəldilən zəncir, mismar, at nalı və digər çoxlu sayda maddi-mədəni nümunələr qəsrin daxilində vaxtilə sənətkarlığın və ticarətin yüksək səviyyədə inkişaf etdiyini sübuta yetirir.



Bu cür arxeoloji qazıntı sahəsində ilk dəfə olduğunu deyən BP şirkətinin regional prezidenti Q.Counz bildirib ki, ərazidə aparılan birgə işlər hər iki tərəfin Kərpiclitəpə ərazisində aşkarlanmış tapıntılarla bağlı Azərbaycanın mədəni irsinə dəstək göstərilməsində əməkdaşlıq etmək niyyətini təsdiqləyir.

Vurğulanıb ki, ərazinin elmi-tarixi tədqiqi əhəmiyyətli arxeoloji tapıntılarla bağlı Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi üzrə ətraf mühitə və sosial sahəyə təsirin qiymətləndirilməsi sənədində CQBKŞ-nin götürdüyü öhdəliklərə uyğundur.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirib ki, BP şirkəti tərəfindən boru xəttinin genişləndirilməsi layihəsi çərçivəsində aparılmış qazıntı işləri nəticəsində aşkar olunmuş abidə Azərbaycan tarixinə və arxeologiya elminə böyük bir töhfədir.

Bu vaxtadək şirkət tərəfindən bir neçə dəfə bu cür maddi-mədəni abidələrin aşkar olunduğunu deyən nazir vurğulayıb ki, hər dəfə də beynəlxalq şirkət ölkəmizin tarixi irsinin aşkarlanmasına və onun qorunub gələcək nəsillərə çatdırılması işinə böyük həssaslıqla yanaşıb.

Kərpiclitəpə arxeoloji abidəsinin əhəmiyyəti nəzərə alınmaqla və bu tapıntının qorunub saxlanılması üçün kəmər marşrutunun dəyişdirilərək sahənin yanından keçməsi qərara alınıb. Marşrutun cənub istiqamətinə dəyişdirilməsinin həm texniki, həm də əməyin təhlükəsizliyi baxımından yeganə mümkün variant olduğu müəyyən edilib və hazırda bu istiqamətdə işlər görülür. Bununla bağlı Mədəniyyət və Turizm Nazirliyi, eləcə də Arxeologiya və Etnoqrafiya İnstitutu ilə əlaqə saxlanılaraq müntəzəm məlumat verilib.

Nazir qeyd edib ki, bundan sonrakı mərhələdə əsas məqsəd abidənin ətrafında arxeoloji qazıntı işlərini yekunlaşdırmaq, ərazidən aşkarlanan maddi-mədəni nümunələri qeydiyyata almaq və onların elmi araşdırılmasını təşkil etmək üçün Arxeologiya və Etnoqrafiya İnstitutu ilə əməkdaşlığı gücləndirmək, həmçinin gələcəkdə Kərpiclitəpə arxeoloji abidəsini konservasiya etməkdir.

Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi işlər üzrə direktor müavini Nəcəf Müseyibli bildirib ki, belə bir feodal qəsri bu vaxtadək neft-qaz kəmərlərinin dəhlizində heç vaxt aşkar edilməyib. Kərpicli arxeoloji ərazisində aşkar olunmuş feodal qəsri Azərbaycanın Orta əsrlər tarixini, eləcə də həmin dövr istehsal mədəniyyətini, sənətkarlıq sahələrini və mədəni-iqtisadi əlaqələrini öyrənmək üçün böyük əhəmiyyət daşıyır.

## Gənc kamança ifaçılarının müsabiqəsi davam edir

Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə ölkəmizdə kamança ixtisası üzrə musiqi təhsilinin inkişaf etdirilməsi, istedadlı uşaq və gənclərin aşkara çıxarılması, dəstəklənməsi, ustad sənətkar, Xalq artisti Habil Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə gənc ifaçıların II Respublika müsabiqəsi keçirilir. Hazırda regionlar üzrə müsabiqənin I mərhələsi davam edir.

Bərdə Regional Mədəniyyət və Turizm İdarəsi üzrə dinləmələr Bərdə şəhər 1 nömrəli Uşaq incəsənət məktəbində gerçəkləşib. Mingəçevir, Yevlax şəhər və Bərdə, Tərtər rayonlarından iştirakçılar arasında müsabiqə 3 yaş kateqoriyası (10-13, 14-17 və 18-21) üzrə aparılıb. 10-13 yaş kateqoriyası üzrə Yevlax şəhər Aran musiqi məktəbinin və Bərdə rayon 1 saylı Uşaq incəsənət məktəbinin təmsilçiləri, 14-17 yaş kateqoriyası üzrə Mingəçevir şəhər Üzeyir Hacıbəyli adına 11 illik Musiqi məktəbi və Bərdə rayon 1 saylı Uşaq incəsənət məktəbinin şagirdləri müsabiqənin 2-ci mərhələsində çıxış etmək hüququ əldə ediblər.

Müsabiqənin ikinci turu Bakı şəhərində keçiriləcək. Bu turda regionlardan seçilmiş iştirakçıların ifaları münsiflər heyəti tərəfindən qiymətləndiriləcək.

## Qəbələnin Nic qəsəbəsində Pasxa bayramı qeyd olunub



**Bu günlər Xristian dünyası Pasxa bayramını (İsa Məsihin zühuru) qeyd edir. Bu il katoliklərin Pasxa bayramı aprelin birinci bazar gününə, pravoslav xristianların bayramı isə ayın ikinci bazar gününə təsadüf edib.**

Qəbələnin Nic qəsəbəsində yaşayan xristian udilər də Pasxa bayramını qeyd ediblər. "Cotari" kilsəsində təşkil olunan bayram mərasimində iştirak edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və rayonun idarə və təşkilatlarının rəhbərləri Alban-Udi Xristian dini icmasının üzvlərini və qəsəbə sakinlərini Pasxa bayramı münasibətilə təbrik ediblər.

Alban-Udi Xristian dini icmasının rəhbəri, kilsənin keşişi və icmanın üzvləri çıxış edərək Pasxa bayramının mahiyyətindən, dini ayinlərin icrası üçün yaradılan şəraitdən, dövlətin diqqət və qayğısından danışıblar. Natiqlər rayonda udilərə qarşı heç bir ayrı-seçkiliyin olmadığını, Nic kilsəsinin əsaslı şəkildə bərpasını ölkədə tolerantlığa gözəl nümunə olduğunu qeyd ediblər.

Sonra kilsədə şamlar yandırılıb, dualar oxunub. Dini ayinlərin icrasından sonra "Cotari" kilsəsinin həyətində udi xalqının qədim "Kala Axsibay" bayramı qeyd olunub. Bayram tədbirində udi xalqının qədim ənənəsi canlandırılıb, udi dilində ifa olunan mahnılar, müxtəlif yeməklər və şirniyyatlarla bəzədilən süfrələr hamıda xoş əhval-ruhiyyə yaradıb.

Sovet dövründə udilərə öz bayramlarını qeyd etmək yasaqlanmışdı. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra onlar dini bayramlarını qeyd etməyə başlayıblar. 2002-ci ildə təmir və bərpa olunan "Cotari" məbədi udilərin istifadəsinə verilib. Hazırda tolerantlığın kiçik modeli hesab edilən Nic qəsəbəsində üç kilsə, iki məscid var.

# Dahi bəstəkarın 100 illiyi Sankt-Peterburqda qeyd olunub

**D.Şostakoviç adına Sankt-Peterburq Akademik Filarmoniyasının böyük zalında dünya şöhrətli bəstəkar, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycanın Dövlət mükafatları laureatı Qara Qarayevin 100 illik yubileyinə həsr olunmuş konsert keçirilib.**

"Qara Qarayevin əsərləri Azərbaycan xalqının zəngin mədəni irsini əks etdirir"





Konsert Prezident İlham Əliyevin görkəmli bəstəkarın 100 illik yubileyinin qeyd olunması haqqında sərəncamına əsasən Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi və ölkəmizin Sankt-Peterburqdakı baş konsulluğunun təşkilatçılığı ilə gerçəkləşib.

Sankt-Peterburq Hökuməti Xarici əlaqələr komitəsinin sədri Yevgeni Qriqoryev tədbirdə çıxış edərək Qara Qarayevin Azərbaycan və dünya mədəniyyətinə ölməz əsərlər bəxş etdiyini bildirib. O, dahi bəstəkarın 100 illiyi münasibətilə Sankt-Peterburqun qubernatoru Georgi Poltavçenkonun tədbir iştirakçılarına ünvanladığı məktubu oxuyub. Məktubda bildirilib ki, Qara Qarayevin əsərləri Azərbaycan xalqının zəngin mədəni irsini əks etdirir və bu gün Sankt-Peterburq ictimaiyyəti Azərbaycan incəsənəti ilə yaxından tanış olmaq imkanı əldə edib. Qubernator son illərdə Azərbaycan və Rusiya Federasiyasının Sankt-Peterburq hökumətləri arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə inkişaf etdiyini, mədəniyyət və təhsil, iqtisadi sahədə əlaqələrin möhkəmləndiyini diqqətə çatdırıb.

Gecə konsert proqramı ilə davam edib. İki hissədən ibarət konsertdə Azərbaycanın Xalq artisti Rauf Abdullayevin dirijorluğu ilə Rusiyanın Əməkdar kollektivi, Sankt-Peterburq Filarmoniyasının Akademik Simfonik Orkestri Q.Qarayevin "Leyli və Məcnun" simfonik poeması, skripka və orkestr üçün konserti, "Don Kixot" simfonik qravürləri, "İldırımlı yollarla" baletindən 2 saylı süitasını səsləndirib. Konsertin solisti məşhur skripkaçı, iki dəfə "Gremmy" mükafatçısı Maksim Venqerov olub.

Yubiley gecəsində ölkəmizin Sankt-Peterburqdakı baş konsulu Sultan Qasımov, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin nümayəndə heyəti, bəstəkarın oğlu, Moskva Konservatoriyasının professoru Fərəc Qarayev, Azərbaycan diasporunun nümayəndələri, Rusiya Azərbaycan Gənclər Təşkilatı (AMOR) şəhər bölməsinin fəalları, Sankt-Peterburqda akkreditə olunmuş diplomatik korpusların əməkdaşları və tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

**Lalə**

# Musiqi məktəbi şagirdinin solo konserti



Azərbaycan Milli Konservatoriyasında Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin Ş.Ələkbərova adına 20 nömrəli onbirillik Musiqi məktəbinin XI sinif şagirdi, Prezident təqaüdçüsü Behnam Məhta Məhəmmədəlizadənin solo konserti keçirilib.

Konsertdən öncə baş idarənin rəisi Vuqar Zeynalov Məhta Məhəmmədəlizadəni əldə etdiyi nailiyyətlərə görə fəxri fərmanla təltif edib və ona gələcək fəaliyyətində uğurlar arzu edib.

Daha sonra Məhta Məhəmmədəlizadə qanunda F.Əmirovun "1001 gecə" baletindən "Fantaziya", Q.Sviridovun "Fırtına" filminə yazdığı "Vals", N.Paqanininin "Venesiyada karnaval", N.Əliverdibəyovun "Elegiya", V.Adıgözəlovun "Laylay" və digər əsərləri səsləndirib.

# TÜRKSOY-un xatirə ili çərçivəsində musiqili gecə

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY tərəfindən 2018-ci ilin "Qara Qarayev ili" elan olunması münasibətilə Türkiyənin Bursa şəhərində möhtəşəm konsert keçirilib.

Böyük bəstəkarların musiqiləri Bursa Dövlət Orkestri tərəfindən maestro Yalçın Adıgözəlovun dirijorluğu və soprano Nurdan Kuçukekmekçinin solistliyi ilə səslənib. Konsertdən sonra Azərbaycanın TÜRKSOY-dakı rəsmi təmsilçisi Elçin Qafarlı təşkilatın diplomlarını ifaçılara təqdim edib.

Xatırladaq ki, TÜRKSOY-un böyük musiqiçinin xatirəsinə elan etdiyi "Qara Qarayev ili"nin təntənəli açılış mərasimi fevralın 14-də Ankara şəhərində keçirilib. İl çərçivəsində türkdili ölkələrdə görkəmli bəstəkarın yubileyi ilə bağlı tədbirlərin keçirilməsi nəzərdə tutulur.

# Tbilisidən mükafatlarla qayıdıblar

**Xəbər verdiyimiz kimi, 1-5 aprel tarixində Tbilisidə Yevgeni Mikeladze adına Orkestr alətləri üzrə gənc musiqi ifaçılarının III Beynəlxalq müsabiqəsi keçirilib.**



Müsabiqənin münsiflər heyətində Gürcüstanın və Azərbaycanın tanınmış mütəxəssisləri Diana Caiana (violin), Hökümə Əliyeva (violin), Serqo Tkabladze, Anna Lomtadze, Əziz Qarayusifli (nəfəs alətləri) və Lana Quldedava (fortepiano) yer alıb.

Müsabiqədə Azərbaycanı Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi, L. və M. Rostropoviçlər adına 21 saylı 11 illik Musiqi məktəbi və 24 saylı 11 illik Musiqi məktəbinin şagirdləri təmsil ediblər.

İki turdan ibarət müsabiqədə nəfəs alətləri nominasiyasında Mərkəzi İncəsənət Məktəbində qoboy ixtisası üzrə müəllim Elşən Məmmədovun sinfində təhsil alan Zakir Allahverdili Qran-pri mükafatına, truba ixtisası üzrə müəllim Vladislav Kuznetsovun sinfində təhsil alan Əlipaşa Şahgəldiyev isə I yerə layiq görülüblər.

Simli alətlər üzrə nominasiyada məktəbin şagirdləri - violin ixtisası üzrə müəllim Höküməə Əliyevanın sinfində təhsil alan Zərrin Əliyeva Qran-pri mükafatını, Ülvi Tahirov I, Nuray Seyid isə II yeri qazanıb.

Tbilisi Dövlət Konservatoriyasında mükafatlandırılma və qaliblərin qala-konserti keçirilib.

# AMEA-nın mükafatlarının sahibləri elan edilib

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin iclasında "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" müsabiqəsinin nəticələri açıqlanıb. ARDNŞ-nin birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə və məşhur fizik, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü Roald Saqdeyev "Nizami Gəncəvi adına Qızıl medal"a layiq görülüblər. Medalın pul mükafatı 10 min manatdır.

İclasda AMEA-nın adlı mükafatlarının sahibləri də elan olunub. Akademik Bahadur Tağıyev AMEA-nın Nəsirəddin Tusi adına, AMEA-nın müxbir üzvü Zeynal Əkpərov AMEA-nın Həsən bəy Zərdabi adına, Azərbaycan incəsənətində böyük xidmətlərinə görə Xalq rəssamı Tahir Salahov AMEA-nın akademik Üzeyir Hacıbəyli adına, akademik Abel Məhərrəmov AMEA-nın akademik Yusuf Məmmədəliyev adına, geologiya-mineralogiya elmləri doktoru Adil Əliyev akademik Musa Əliyev adına, Azərbaycan qədim dövr tarixinin tədqiqi və təbliğində xidmətlərinə görə akademik Nailə Vəlixanlı Abbasqulu ağa Bakıxanov adına mükafata layiq görülüblər. Qaliblərin hər birinə 5 min manat məbləğində pul mükafatı veriləcək.

# İslam dünyası gənc klassik musiqi ifaçılarının növbəti müsabiqəsi

Bakıda İSESCO-nun, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi, "Kainat" Gənclik Mərkəzinin təşkilatçılığı ilə İslam dünyası gənc (20 yaşadək) klassik musiqi ifaçılarının VII Beynəlxalq müsabiqəsi keçirilir.

Müsabiqəyə 9 ölkənin (Azərbaycan, Türkiyə, Misir, Rusiya Federasiyası (Tatarıstan), Qazaxıstan, Özbəkistan, Mərakeş, İran, Əlcəzair) təmsilçiləri qatılıb. Kiçik yaş qrupu üzrə dinləmələr aprelin 10-da Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında baş tutub. Böyük yaş qrupu üzrə iştirakçılar aprelin 11-də Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və orqan musiqisi zalında çıxış edəcəklər.

Müsabiqə qaliblərinin mükafatlandırılması mərasimi və qala-konsert aprelin 12-də Bakı Musiqi Akademiyasının böyük konsert zalında keçiriləcək.

**Xəbər verdiyimiz kimi, aprelin 5-dən 7-dək Bakı Ekspo Mərkəzində 17-ci Azərbaycan Beynəlxalq "Turizm və səyahətlər" sərgisi ("AİTF 2018") və 12-ci Qafqaz Beynəlxalq "Mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar" ("Horex Caucasus 2018") sərgisi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aprelin 6-da sərgilərlə tanış olublar.**

# Beynəlxalq turizm sərgiləri qarşılıqlı təbliğat üçün mühüm meydandır

## Prezident İlham Əliyev "AİTF 2018" sərgisi ilə tanış olub



Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev sərgilər barədə dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verib.

Qeyd olunub ki, "Bütün dünya - bir sərgi" şüarı altında keçirilən "AİTF 2018" sərgisində 20 ölkəni təmsil edən 277 şirkət iştirak edir. "Horex Caucasus 2018" regionda mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar üzrə ən böyük ixtisaslaşmış sərgidir.

Prezident İlham Əliyev əvvəlcə Mədəniyyət və Turizm Nazirliyinin stendi ilə tanış olub. Stenddə Azərbaycanın turizm marşrutları və məkanları, paytaxtla yanaşı, bölgələrin mövcud turizm potensialı və infrastrukturu barədə, həmçinin Bakının "Ekspo 2025" Dünya Sərgisinə ev sahibliyinə namizədliyi ilə bağlı məlumatlar yer alıb. Diqqətə çatdırılıb ki, 2017-2018-ci illər qış mövsümündə təkcə Şahdağ Turizm Mərkəzini 140 mindən çox turist ziyarət edib ki, onların yarısı xarici vətəndaşlar olub.

Bildirilib ki, Azərbaycan Turizm Assosiasiyasının stendində 15-ə yaxın şirkət təmsil olunur. Burada Bakıda və regionlardakı hotel kompleksləri, istirahət məkanları, əyləncə mərkəzləri barədə məlumat almaq mümkündür.

Qeyd olunub ki, sərgidə Qarabağ stendinə böyük maraq var. Azərbaycanın əzəli torpağı Qarabağın təbii gözəllikləri qonaqların xüsusi marağına səbəb olur. Bundan əlavə, digər bölgələrimizin təbii imkanları da sərgidə nümayiş etdirilir. Ölkəmizin zəngin mədəniyyəti, milli mətbəximizin müxtəlifliyi, xalqımızın qonaqpərvərliyi, müxtəlif turizm növləri üçün əlverişli imkanlar turistləri Azərbaycana cəlb edir.

Diqqətə çatdırılıb ki, sərgidə təmsil olunan Azərbaycan Konqreslər Bürosu ölkəmizi dünya səviyyəli biznes, alış-veriş və istirahət məkanı kimi təbliğ edir.

Dövlət başçısı və xanımı müxtəlif ölkələrin stendləri ilə də tanış olub. Bildirilib ki, AİTF sərgisinin daimi iştirakçısı olan Rusiyanın Stavropol vilayətinin stendində 50-yə yaxın şirkət, 25-dək sanatoriya öz xidmətlərini təklif edir. Sərgiyə 4 şirkətlə qatılan Rusiya Federasiyasının Dağıstan Respublikasının turizm marşrutları ziyarətçilər tərəfindən maraqla qarşılanır.




İtaliyanı sərgidə bu ölkənin Milli Turizm Şurası təmsil edir. Qurum İtaliyanın turizm, hotel və yeməkxana komplekslərinin xidmətlərini nümayiş etdirir.

Gürcüstan da bu sərginin daimi iştirakçılarındandır. Budəfəki sərgidə ölkəni Gürcüstan Milli Turizm Administrasiyası təmsil edir. Qurumun stendində 10 şirkət xidmətlərini nümayiş etdirir.

Qardaş Türkiyə həmişə olduğu kimi, bu il də sərgidə geniş təmsil olunur. Bu ölkənin müxtəlif bölgələrinin turizm marşrutları, turizm xəritələri böyük maraqla qarşılanır. Sərgidə Türkiyəni təmsil edən 15-ə yaxın şirkət turizm, sağlamlıq və müalicəvi xidmətlərini təklif edir.

Çex Respublikası sərgidə 7 şirkətlə təmsil olunur. Geniş turizm imkanlarına malik bu ölkənin böyük hotellər şəbəkəsi, kurortlar və turizm şirkətləri ziyarətçilər tərəfindən maraqla qarşılanır.

Bolqarıstan "AİTF 2018"in rəsmi tərəfdaşıdır. Ölkələrimiz arasında əməkdaşlığın nəticəsidir ki, bu ilin yanvarında Bakı-Sofiya aviaxətti açılıb. Bu da öz növbəsində ikitərəfli turizm axınına müsbət təsir göstərir.

Sərgidə ilk dəfə iştirak edən İndoneziyanı Şərqi Yava əyaləti təmsil edir. Ölkənin geniş turizm potensialını təqdim edən bu əyalətin şirkətləri növbəti illərdə sərgiyə daha böyük nümayəndə heyəti ilə qatılmaq niyyətlərini bəyan ediblər.

Dünyada turizmin mühüm məkanlarından olan Tailandın şirkətləri ölkənin turizm potensialının cəlbediciliyini ziyarətçilərin diqqətinə çatdırır.

Prezident və xanımı xarici ölkələrin turizm təmsilçiləri ilə söhbət edib, xatirə şəkli çəkdiriblər.

# Azərbaycan Konqreslər Bürosunun təşkilatçılığı ilə...

AZERBAIJAN CONVENTION BUREAU

5-6 aprel tarixində Bakıda Azərbaycan Konqreslər Bürosunun təşkilatçılığı ilə daha bir beynəlxalq tədbir - "Frontline Freight Networks"un ("Cəbhə Yükdaşıma Şəbəkəsi") 9-cu Qlobal toplantısı keçirilib.

Müxtəlif ölkələrdən 40-dək nümayəndənin iştirak etdiyi tədbir işgüzar görüş iclasları formatında gerçəkləşib. İştirakçılar üçün Bakının görməli yerlərinə, o cümlədən İçərişəhərə ekskursiya təşkil edilib.

Qeyd edək ki, "Frontline Freight Networks" (FFN) həm səlahiyyətli, həm də etibarlı yükgöndərmə və logistika mütəxəssisləri qrupudur. Dünyanın hər yerində üzvləri olan təşkilatın illik konfransının təşkilində əsas məqsəd işgüzar imkanları müzakirə etmək və fəaliyyətdə olan, eləcə də dünyanın hər yerindən cəlb edilən yeni üzvlərlə görüşməkdir. FFN İdarə heyətinin qərarına əsasən, budəfəki görüş məkanı Bakı seçilib.

2013-cü ildən fəaliyyət göstərən Azərbaycan Konqreslər Bürosunun vəzifələrindən biri Mədəniyyət və Turizm Nazirliyinin, eləcə də digər aidiyyəti dövlət qurumlarının dəstəyi ilə Azərbaycana irimiqyaslı beynəlxalq tədbirləri cəlb etmək və ölkəni beynəlxalq səviyyəli təyinat məkanı kimi təbliğ etməkdir. Büro dünyanın müxtəlif ölkələri ilə işləyir, hədəf bazarlarla əlaqələr qurur, bazar iştirakçılarını ölkəyə cəlb etməyə çalışır.

# İlin üç ayında ölkəyə gələn xarici vətəndaşların sayı 12,6 faiz artıb

2018-ci ilin 3 ayı ərzində Azərbaycana 627835 nəfər xarici vətəndaş səfər edib ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 70207 nəfər və ya 12,6% artım deməkdir. Xarici vətəndaşların 185913 nəfəri yanvar, 166161 nəfəri fevral və 275 761 nəfəri isə mart ayında ölkəmizə gəlib.

Ölkəmizə səyahət edən xarici vətəndaşların sayına görə Rusiya Federasiyası (171814 nəfər), Gürcüstan (138909 nəfər), İran (99158 nəfər) və Türkiyə (72733 nəfər) ilk sıralardadır. Bununla yanaşı, Birləşmiş Ərəb Əmirlikləri (29317 nəfər), Ukrayna (11847 nəfər) və İraq (11112 nəfər) vətəndaşları da Azərbaycana gələnlərin sırasında seçilib.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə artım tempinə görə seçilən ölkələr Gürcüstan (15684 nəfər və ya 12,7%), Rusiya (11188 nəfər və ya 6,97%), Türkiyə (8191 nəfər və ya 12,7%), BƏƏ (6931 nəfər və ya 31%) və Küveyt (5621 nəfər və ya 614%) olub.

2018-ci ilin 3 ayı ərzində Azərbaycana səfər edən xaricilərin əsas hissəsi MDB ölkələri və Gürcüstan (342457 nəfər və ya 54,5%), Fars körfəzi və Yaxın Şərq ölkələri (166976 nəfər və ya 26,5%) və Avropa ölkələrinin (93122 nəfər və ya 14,8%) payına düşüb. Bu müddətdə hər üç regiondan ölkəmizə gələnlərin sayında artım olub: MDB ölkələri və Gürcüstan region üzrə 28560 nəfər (9,0%), Fars körfəzi və Yaxın Şərq ölkələri üzrə 23022 nəfər (15,9%) və Avropa regionu üzrə 8008 nəfər (9,4%).

# Əcnəbilər burada, bizimkilər xaricdə

## Bank kartları vasitəsilə əməliyyatlarda artım

Azərbaycana gələn xarici vətəndaşlar tərəfindən bank kartları vasitəsilə cari ilin yanvar ayında 99798809 manat, fevral ayında 91128890 manat, ümumilikdə isə 190927699 manat məbləğində əməliyyat aparılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ildə xarici vətəndaşlar tərəfindən bank kartları vasitəsilə 31565965 manat və ya 20% daha çox vəsait xərclənib. Azərbaycan vətəndaşları tərəfindən isə xaricdə 2 ay ərzində 179521339 manat məbləğində əməliyyat aparılıb. Xarici vətəndaşların Azərbaycanda xərclədikləri vəsaitin həcmi Azərbaycan vətəndaşlarının xarici ölkələrdə xərclədikləri vəsaitdən 11406360 manat çoxdur.

# Azərbaycan Qlobal Sağlamlıq Turizmi Şurasına rəhbərlik edəcək

**Türkiyənin Antalya şəhərində Beynəlxalq "Hestourex" (Səhiyyə, idman və alternativ turizm) sərgi və konqresi keçirilib. Azərbaycanın da təmsil olunduğu tədbirə 22 ölkədən 48 nümayəndə qatılıb.**




Tədbir çərçivəsində aprelin 7-də Qlobal Sağlamlıq Turizmi Şurası (Global Healthcare Travel Council - GHTC) Baş assambleyasının toplantısı, qurumun rəhbər orqanlarına növbəti seçki keçirilib. Təşkilata rəhbərlik Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana keçib. Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının sədri Ruslan Quliyev Qlobal Sağlamlıq Turizmi Şurasının prezidenti seçilib. Həmçinin altı vitse-prezident elan olunub. Eyni zamanda Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyası idarə heyətinin üzvü Ceyhun Aşurov GHTC baş katibinin müavini seçilib.

Toplantıda çıxış edən Ruslan Quliyev Azərbaycan sağlamlıq turizminin imkanları və perspektivləri barədə məlumat verib, təşkilatın platformasını açıqlayıb.

O, jurnalistlərə müsahibəsində bildirib ki, bu seçim Azərbaycanda sağlamlıq turizminin inkişafına yeni töhfə verəcək və ölkə turizminin bu istiqamət üzrə tanıdılmasına geniş imkanlar yaradacaq: "Bu təşkilatda fəal üzvlüyümüz Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə reallaşıb. Ötən beş ildə ölkəmizin turizm potensialının tanınmasına böyük əmək sərf olunub. Biz çalışacağıq ki, rəhbərliyimiz dövründə də bu istiqamətdə işlərimizi davam etdirək. Azərbaycanın Qlobal Sağlamlıq Turizmi Şurasına rəhbər seçilməsi bir daha ölkəmizin dünyada artan nüfuzundan xəbər verir. Toplantının nəticələrinə görə 2019-cu ildə Qlobal Sağlamlıq Turizmi Forumu Azərbaycanda keçiriləcək. Bu da ölkəmizdə turizmin daha da genişlənməsinə təkan verəcək".

Qeyd edək ki, Azərbaycan 2013-cü ildən bu qurumda təmsil olunur. 2014-cü ildən isə təşkilatın idarə heyətində fəaliyyət göstərir.

# Turizmdə dəmir yolunun imkanlarından söhbət açılıb

"Azərbaycan Dəmir Yolları" QSC-də Rusiya Federasiyası Dağıstan Respublikasının xalq bədii sənətkarlıq və turizm naziri Rəbiyyət Zakavovanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov Azərbaycan dəmir yollarında həyata keçirilən əsaslı yenilənmədən, ölkəmizin regional nəqliyyat layihələrində iştirakından bəhs edib.

Görüşdə həmçinin dəmir yolu vasitəsilə yük və sərnişin daşımalarında gömrük prosedurlarının sadələşdirilməsi, Rusiyadan gələn turistlərin məhz dəmir yolunun imkanlarından istifadə etməklə ölkəmizin ərazisinə daxil olması müzakirə olunub. C.Qurbanov həmçinin gələcəkdə Azərbaycan-Rusiya dəmir yolunda "Stadler Rail Group"un istehsal etdiyi sürətli elektrik qatarlarından istifadə olunacağını vurğulayıb.

**Turizm sərgisinə kim niyə gedir? Yəqin ki, hərənin öz səbəbi var. Bizim 17-ci dəfə keçirilən Azərbaycan Beynəlxalq "Turizm və səyahətlər" sərgisinə ("AİTF 2018") üz tutmağımız, ilk növbədə, jurnalist marağı idi. Bu dəfə sərgiyə kimlər təşrif buyurub, hansı ölkənin turoperatorları təzə nə təklif edir və s.**

# Bakıda növbəti görüşədək...




Bakı Ekspo Mərkəzindəki sərgi meydançasında yerli turizm agentliklərinin artımı göz qabağındadır. Üstəlik, aviaşirkət stendlərinin qarşısındakı qələbəlik, bilet bronlaşdıran, uçuş şərtləri ilə maraqlanan soydaşlarımızın çoxluğu vətəndaş olaraq adamı sevindirir. Deməli, soydaşlarımızın gedəcək yeri, xərcləyəcək vəsaiti, görəcəyi işləri var.

Sərginin tən ortasını isə Türkiyənin stendləri tutub. Bir növ sərgi içində sərgiyə oxşayır. Qardaş ölkənin Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə "Türkiyə mədəniyyətinin evi"nin təqdimatları xüsusilə rəngarəng idi. Çeşidli musiqi nömrələrinin canlı ifası, fərqli bölgələrin rəqslərinin nümayişi, əbru sənətindən ustad dərsi...

#### Hər kəs Kastamonuya gedərkən, Kastamonu bizə gəlmiş...

Bildiyimiz kimi, TÜRKSOY təşkilatı Türkiyənin Kastamonu şəhərini 2018-ci il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edib. Odur ki, son aylar Kastamonu dillər əzbəridir. "Mədəniyyət paytaxtı"nın stendinə yaxınlaşırıq. Təmsilçilərlə tanış oluruq.

"Kuzey Anadolu Kalkınma Ajansı"nı təmsil edən Turqay Yıldız:

- Qara dəniz sahilinin incisi qədim Kastamonu şəhərini layiqincə tanıtmaq istəyirik. Kastamonu tarixi məkanlarla tanışlığı sevənlər üçün maraqlı şəhərdir. Azərbaycandakı turoperatorlarla əlaqələr qurmaq istəyirik.

Kastamonu Valiliyinin koordinasiya meneceri Yasemin xanım bizi ilboyu öz şəhərlərində keçiriləcək tədbirlərə dəvət edir:

- Nə yaxşı ki, gəlmişik. Sizləri də Kastamonuda görməyə çox sevinərik.

Biz Yasemin xanımla söhbət edərkən iki gənc oğlan stendə yaxınlaşır, Turqay bəydən Kastamonuya haradan necə gəlməyin mümkünlüyü, bu şəhərə təyyarə reysinin mövcudluğu, hotellərin ortalama birgünlük qiyməti ilə də maraqlanırlar.

#### Bali, yoxsa Şərqi Yava?

Sakit okean incisi - İndoneziyanın Bali adasının reklama ehtiyacı yoxdur. Yəqin elə buna görə də İndoneziya stendi büsbütün Şərqi Yava adasına həsr olunub. Uzaq İndoneziyada təhsil almış, adı özünə yaraşan Gülnar adlı gənc xanım indoneziyalı turizm meneceri cənab Suaybandu ilə həmsöhbət olmağımıza vasitəçilik edir.

**- İndoneziya təbiət və iqlim baxımından zəngin ölkədir. Sizin ölkənin vətəndaşlarını Azərbaycana nə cəlb edir?**

- Azərbaycana turist kimi gəlmək istəyənlər az deyil. Əsas çətinlik yolun uzaqlığı və bahalığı ilə bağlıdır. Üstəlik, birbaşa reysin olmaması turizm əlaqələrinin qurulmasını ləngidir.

**- Bütün dünya Bali adasını yaxşı tanıyır. Bu sərgidə isə siz Şərqi Yava adasını təmsil edirsiniz...**

- Şərqi Yava əhalisinin sayına görə ölkənin ikinci böyük əyalətidir. Əyalətin mərkəzi Surabaya şəhəri isə paytaxt Cakartadan sonra ikinci böyük şəhərdir. Bu adanın ekoloji cəhətdən çox təmiz çimərlikləri var, adanın ərazisi isə müxtəlif aktiv vulkanlarla zəngindir. Bəli, vulkanların aktivliyi sizi qorxutmasın, onlar aktiv olsalar da, aqressiv deyillər. Şərqi Yava sahilləri ekstremal su idmanı, xüsusən də serfinq həvəskarları üçün əsl cənnətdir.

#### İki yüzillik şərəfinə

Çex Respublikasının stendinə yaxınlaşanda sovet dövrünə təsadüf edən uşaqlığımız zamanı bu ölkəyə yolu düşən turistlərin oralardan nələr gətirdikləri yada düşür. Bəs şop-turların öz önəmini itirdiyi bu gün Çexiyanın "Saxanatravel" turizm şirkəti nələr vəd edir?

Şirkətin meneceri Aleksey Uqarov:

- Dörd ildir ki, Azərbaycan turoperatorları ilə çalışırıq. Amma sərgidə ilk dəfə iştirak edirik. Bu il bizim ölkəmizin müstəqillik əldə etməsinin 100 ili tamam olur. Azərbaycanı da respublika quruculuğunun 100 illik yubileyi münasibətilə təbrik edirik. Bu münasibətlə də bizim turizm agentliyi Azərbaycan turistləri üçün xüsusi turlar tərtib edib. Azərbaycanlılar daha çox "Avropanın krallıq yolları", "UNESCO imperiya inciləri", "Milad sehri" turlarına maraq göstərirlər. Bu turlara təkcə Çexiyanın deyil, həmsərhəd ölkə şəhərləri də daxildir.

#### Uzaqlardan yaxınlara...

Kubaçi sənəti nümunələri incə zövqlü insanları həmişə cəlb edib. Dağıstanın Mahaçqala şəhərindən gəlmiş «Artel-Kubaçi» ASC-nin stendi qarşısında usta Əlihacı ilə söhbət edirik. Qızıl suyuna salınmış gümüş aksessuarlar, interyer bəzəkləri düzəldən usta bu sənətin tarixindən danışır. Deyir ki, kubaçi zərgərliyi irsən ötürülür. O, sənəti atasından öyrənib, indi də oğluna öyrədir. Ümumiyyətlə isə, kubaçi zərgərlik sənəti soyuq silahqayırmadan qaynaqlanır. Savaş səngiyəndə ustalar zərgərlik nümunələri düzəltməyə başlayıblar. Bu yerdə öz fikrimizi bildiririk:

**- Elə isə, həmişə zərgərliklə məşğul olun. Qoy kişilər silaha verəcək pullarını qadınların zinətinə xərcləsinlər!**

Usta gülür:

- Razıyam. Onsuz da bu silahların zamanı çoxdan keçib. Qadınlar isə təkrarsız kubaçi bəzəkləri ilə süslənməyə layiqdirlər.



#### Varnada istirahət hər zaman var...

Bir zamanlar Bolqarıstan soydaşlarımızın səfər etdiyi ilk xarici ölkə sayılırdı. Düşüncələrimizi Varna Bələdiyyəsinin təmsilçisi, Bolqarıstan Bələdçilər Şurasının üzvü Snejana Atanasova ilə bölüşürük:

- Biz elə əvvəlkitək qonaqpərvərik. Azərbaycanlıları öz şəhərimizdə görməyə həmişə şadıq. Bakı-Sofiya aviareysinin açılması çox yaxşı haldır. Digər tərəfdən, ölkəmiz sərginin təşkilində Azərbaycanın rəsmi tərəfdaşıdır. Məncə, iki ölkə arasında münasibətlər bundan sonra daha da inkişaf edəcək. Varna yenə də xoş istirahətin, səhhətinə diqqət yetirənlərin ürəklə seçəcəyi şəhərdir. Buyurun, gəlin!

"AİTF 2018" sərgisinin təəssüratını oxucularla bölüşdü:

**Gülcahan Mirməmməd**

# "Mezzo" telekanalında Azərbaycanın tanıtım çarxı yayımlanır

**Mədəniyyət və Turizm Nazirliyi Azərbaycanın mədəniyyətini, incəsənətini, tarixi irsini, təbii gözəlliklərini, zəngin milli mətbəxini dünyada təbliğ etmək üçün davamlı layihələr həyata keçirir. Bu fəaliyyətin mühüm bir istiqaməti də nüfuzlu xarici telekanallarda ölkəmizlə bağlı tanıtım çarxlarının yayımlanmasıdır.**

Nazirliyin sifarişi ilə hazırlanan növbəti belə videoçarxın nümayişi aprelin 9-da Fransanın "Mezzo" telekanalında yayımlanmağa başlanıb.

Ölkəmizin memarlığının, təbiətinin və mətbəxinin zənginliyinin əks olunduğu videoçarxda dünya şöhrətli bəstəkarımız Fikrət Əmirovun məşhur "Azərbaycan kapriççiosu" əsərinin musiqisindən istifadə olunub.

Videoçarxın təsviri Bakıdan, gecə vaxtı işıqları sayrışan "Alov qüllələri"ndən başlayaraq, Qəbələ musiqi festivalının açıq hava səhnəsində orkestrin ifası ilə davam edir. Fonda səslənən möhtəşəm musiqinin sədaları altında seyrçi yaşıl donlu dağlar qoynuna "yollanır", yenidən Bakıya qayıdır, fərqli rakursdan Azərbaycan Dövlət Akademik Filarmoniyasının binasını, Qız qalasını seyr edib, İçərişəhərdəki qədim bazar abidə kompleksindəki heykəllərlə, milli balet nümunəsi ilə tanış olur. Ardınca Şəki Xan sarayının rəngli şüşəli pəncərələrindən ətrafı seyr edib, milli mətbəximizin ən ləziz yeməklərindən olan yarpaq dolmasının hazırlanmasını izləyir. Hazır xörək isə ona adi masada deyil, Azərbaycan xalçasının üstündə təqdim edilir. Bunun ardınca sanki Azərbaycan Xalça Muzeyində qorunan "sehrli xalça" ilə səyahətə çıxaraq İçərişəhərdə mənzil başına çatır. Reklam çarxı seyrçidə Azərbaycanın görməli yerləri, mədəni irsi barədə yaddaqalan təsəvvür yaradır.




"Mezzo" televiziya kanalı 1992-ci ildə fəaliyyətə başlayıb. Telekanalda klassik musiqi, caz, musiqili folklora xüsusi yer verilir. Kanalda əsasən konsertlər, opera və balet tamaşalarının canlı yayımı, festivallar zamanı lentə alınmış musiqi proqramları nümayiş etdirilir, eləcə də musiqi növləri və ifaçılar haqqında sənədli filmlər göstərilir.

**Gülcahan**

# "Səyahətlərin ən gözəl məqamı evə qayıdışdır"

## 175 ölkəni gəzib görmüş həmvətənimizlə söhbət

**Səyahət etmək hər fəsildə gözəldir. Dünyanın fərqli ölkələrində olmaq, yerli xalqların mədəniyyəti, adət-ənənəsi ilə tanış olmaq çoxlarının marağındadır. Elə bu maraqla Yer kürəsinin hər iki qütbünə, Afrikanın və Asiyanın səhralarına, Cənubi Amerikanın tropik meşələrinə səfər etmiş, Budda rahibləri və Afrika qəbilələrindən hindulara qədər müxtəlif xalqların adət-ənənələri ilə tanış olmuş səyyah soydaşımız Mehrac Mahmudovla müsahibəni təqdim edirik.**



**- Elə insanlar var ki, onlar üçün səyahət etmək, fərqli mədəniyyətləri kəşf etmək sanki bir həyat tərzinə çevrilir. Siz də elə insanlardan birisiniz. Bunun kökündə nə dayanır?**

- Bilmirəm, bəlkə də bu, uşaqlıqda oxuduğumuz kitabların təsiridir və ya, bəzi mütəxəssislərin hesab etdiyi kimi, sırf psixoloji amillərlə bağlıdır. Bəlkə də bu özünü inkişaf etdirmək, yeni şəhərlər, ölkələr görmək, gündəlik həyatın monotonluğundan xilas olmaq, fərqli emosiyalar yaşamaq istəyidir. Səyahətdə olduğum 2-3 həftə mənə işləmək, yeni layihələrə başlamaq, maraqlı təşəbbüslərə qoşulmaq üçün lazım olan enerjini verir. Bunun adına çox vaxt adrenalin almaq arzusu deyirlər. Amma mən bununla tam razı deyiləm, bu, dünyanı kəşf etmək istəyidir. Amma səbəbindən asılı olmayaraq, mən özümü səyahətsiz təsəvvür etmirəm. Bəzən məndən soruşurlar ki, səyyah olmaq nədir? Məni dünyanı gəzməyə, 25 ilə 175 ölkədə olmağa nə təşviq edib? Olduğum ölkələrin, şəhərlərin adını çəkəndə belə sualların sayı daha da artır. Çünki olduğum yerlərin siyahısında bizim bildiyimiz ənənəvi turizm məkanları, "gəzməyə gedirəm", "istirahətdəyəm" sözlərini özündə ehtiva edən komfortlu şəhərlərin və kurortların sayı çox azdır.

**- Yəqin ki, getdiyiniz yerlərdən ən çox haranı bəyənirsiniz tipli suallar da verirlər...**

- Bu, çox çətin və cavabı olmayan bir sualdır. Çünki hər bir yer özünə görə fərqlidir, təkrarolunmazdır. Sadəcə bəzi yerlər var ki, orada gördüklərim məndə unudulmaz təəssürat yaradıb. Səyyahları özünə cəlb edən qitələrdən biri Afrikadır. Bu qitəyə səfərlər maraqlı olduğu qədər də təhlükəlidir. Burada müxtəlif yoluxucu xəstəliklərlə də rastlaşmaq olar, ciddi təhlükələrlə də. Amma bu təhlükələrin heç biri Afrikanın gözəlliyinə kölgə salmır. Çünki Afrika öz vəhşi təbiəti, gözəllikləri, xalqlarının maraqlı adət-ənənələri, ucsuz-bucaqsız səhraları ilə insanı özünə cəlb edir. Afrikanın bir sıra ölkələrində hər şey min il bundan əvvəlki kimi qalıb. Təbiət qorunub saxlanılıb, vəhşi heyvanların yaşayışına insan müdaxiləsi yoxdur, insanlar isə sivilizasiyanın nailiyyətlərindən uzaqdırlar. Bu qitə həm də bəşəriyyətin beşiyi sayılır. İnsanlığın əvvəlcə buradan, Namib səhrasından çıxdığı ehtimal olunur. Namib narıncı qumları, daşlaşmış meşələri, akasiyaları, asta-asta qumun altına gedən Kolmanskop şəhəri ilə insanı valeh edir. Bu səhrada xüsusən ulduzlu gecələrdə insanın necə balaca, bəşəriyyətin isə necə böyük olduğunu hiss edirsən. Yerli sakinlərin fikrincə, adi turist bu səhrada bir saatdan çox qala bilməz. Mən səhrada yağışı da gördüm. Qəribə mənzərədir - səma tərtəmizdir, göydən sanki alov yağır və qəfil peyda olan buludlardan kiçik bir sahəyə leysan yağmağa başlayır. Güclü yağış çox qısa davam edir, ətrafı su basır, yarım saat sonra yenidən gün çıxır.



**- Dünyanın hər iki qütbündə olmusunuz. Yer kürəsinin ən ucqar nöqtələrində olmaq necə bir hisdir?**

- Əlbəttə, isti Afrika təbiətindən fərqli, sərt iqlimi görmək istəyənlər qütblərə səyahət etməlidirlər. Planetin "damına", 90 dərəcə şimal enliyinə çatmaq, əbədi buzları görmək bir çoxlarının arzusudur. Burada ağ rəng hökmranlıq edir. Ayaqların altında isə hərəkətli buz və onun altındakı bir neçə kilometr dərinlikli kristal təmiz və soyuq okeandır. Mövcud ənənəyə görə, şimal qütbünə gəlmiş insanlar planetin "damı" ətrafında dövrə vururlar, sanki Yer kürəsini fırlanırlar.

Mən Arktikaya elmi ekspedisiyanın tərkibində səfər etmişəm. Bu səyahət mənə dünyanın ən böyük atom buzqıran gəmisini - "Qələbənin 50 ili" buzqıranını görməyə imkan verdi. Kapitanın bizə dediyinə görə, buzqıran gəmi qalınlığı 3 metrdən çox olan qocaman arktik buzları yararaq keçmək iqtidarındadır. Bu gəmi ilk növbədə işçi buzqırandır və onun əsas funksiyası Şimal dəniz yolu akvatoriyasında yük və elmi ekspedisiya məqsədli gəmilərin hərəkətini təmin etməkdir.

Şimal qütbünə səfər zamanı biz Frans-İosif torpağı arxipelaqına və Vrangel adasına çıxa bildik. Arxipelaqa 196 ada daxildir. Onlar 80 dərəcə şimal enliyində yerləşir. Vrangel adası çoxlu sayda ağ ayıların yaşaması ilə məşhurdur. Ayılar adada sərbəst dolaşırlar və adamlardan demək olar ki, qorxmurlar. Mən hiss etdim ki, bu qorxunun olmamasının sirri əslində sadədir. Bu ada ayılarındır, insanlar isə bu bulu diyarda hələ də qonaq statusundadırlar.

Bizim ekspedisiya şimal qütbünə yayın əvvəlində yola düşmüşdü. Həmin vaxt havanın temperaturu mənfi 15 dərəcəyə yaxın idi. Yayın ən isti vaxtında Arktikada havanın temperaturu 0 dərəcəyə qədər qızır. Yayda Şimal buzlu okeanda suyun hərarəti mənfi 2 dərəcədən yuxarı qalxmır. Okean buzlaqlar üçün termik tənzimləyici rolunu oynayır. Yazda suyun temperaturu mənfi 10 dərəcəyə, qışda isə mənfi 25-45 dərəcəyə çatır. Lakin qış mövsümündə Arktika yalnız qütbçü tədqiqatçılar üçün açıqdır.

Mən çox yerdə olmuşam, təkcə şimal qütbündə insanın ram edə bilmədiyi təbiətin gücünü hiss etmək olur. Əbədi buzların monoton landşaftı, üfüqdən o yana uzanan qarlı səhralar və ətrafda 700 kilometr məsafədə insan məskəninin olmaması adamı düşünməyə məcbur edir. Bu buzlu səhrada təbiətin möhtəşəmliyini və insanın kiçikliyini anlayırsan. Oxşar hislər cənub qütbündə - Antarktidada da yaşanır. Antarktidanın buzlaqlarında və donmuş səhralarında təbiətin möhtəşəmliyini dərk edirsən. Ümumiyyətlə, Antarktida həmişə mənə sirli, planetin digər yerlərindən fərqli bir məkan kimi gəlib. Qitə və onun ətrafındakı adalar tədqiqat üçün azad zonadır və heç bir dövlətə aid deyil. Yayda buraya pinqvinlərin, dəniz pişikləri və dəniz fillərinin həyatını öyrənən alimlər və Antarktidanın gözəlliklərini görmək istəyən turistlər gəlir. Mən də Antarktidada yay mövsümündə oldum. Qış mövsümündə isə qitə səyyahlar üçün bağlıdır.

**- Azərbaycandan minlərlə kilometr uzaqda olanda vətən haqda düşüncələriniz maraqlı olar...**

- Mən əbədi buzlar qitəsinin ən yüksək nöqtəsində öz ölkəmin bayrağını qaldırdım, Azərbaycanın adını qeyd etdim və onu Antarktidadan ayıran məsafəni göstərdim. Bu işarə Antarktidada daim qalır, hansı ölkələrdən qitəyə səyyahların gəldiyini göstərir və bir növ həmin ölkədən xatirə simvolu olur.

Amma sonda onu demək istəyirəm ki, səyahətlərin ən gözəl məqamı evə qayıdışdır. Azərbaycana dönəndə başa düşürsən ki, harada olursansa ol, nə görürsənsə gör, insan üçün ən gözəl yer onun vətənidir.

**Fariz Hüseynov**

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun layihələrindən söhbət açılıb

**Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Bakıda keçirilən Qoşulmama Hərəkatı xarici işlər nazirlərinin konfransı çərçivəsində Qırğızıstanın Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə elçisi Xanaim Baktuqulova ilə görüşüb.**



Fondun türk xalqlarının tarixinin, ədəbiyyatının və mədəniyyətinin mühafizəsi və təşviqi istiqamətində fəaliyyətindən söz açan G.Əfəndiyeva Türk dünyasının zəngin mədəni irs nümunələrindən olan "Dədə Qorqud", "Koroğlu" dastanları, o cümlədən "Manas" qırğız dastanı ilə bağlı layihələr barədə məlumat verib. Günay Əfəndiyeva böyük qırğız yazıçısı Çingiz Aytmatovun 90 illik yubileyi ilə bağlı Fond tərəfindən keçirilməsi planlaşdırılan tədbirlər barədə də danışıb.

Bakıda ilk dəfə səfərdə olan Xanaim Baktuqulova paytaxtımız haqqında təəssüratlarını heyranlıqla danışıb, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun həyata keçirdiyi layihələri yüksək qiymətləndirib. O, Fondun layihələrinə Qırğızıstan hökuməti tərəfindən hərtərəfli dəstək veriləcəyini qeyd edib.

Görüşdə birgə əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.

## Qazaxıstanın orta məktəb dərsliyində Azərbaycan musiqisi


кающийся с азербайджанским дастаном с тем же названием. Эти дастаны рассказывают о бесстрашных батырах, мужественно защищавших родные земли, интересы своего народа.

**Творчество азербайджанских ашугов**
***(Фрагмент)***

**Слушание музыки. Анализ**

- Сравни искусство пения ашугов и жырау – казахских народных сказителей. Назови сходство и различия в их исполнении.
- На каких музыкальных инструментах аккомпанируют себе ашуги при исполнении песен?
- О чем бы ты пел, если бы был ашугом?

**Музыкальные инструменты азербайджанского народа**



Азербайджанские народные и профессиональные композиторы сочинили много песен для детей. Одна из них – песня «Мои цыплята» («Jujalarim», «Шөжелерім»). Эта песня очень популярна в нашей стране и любима детворой.

Qazaxıstanın orta məktəb dərsliyində Azərbaycan musiqisi və aşıq sənətindən bəhs olunub. Qazaxıstan Respublikası Təhsil və Elm Nazirliyinin tövsiyəsi ilə çap olunan V sinif "Musiqi" dərsliyində Azərbaycan aşıq sənəti, xalq çalğı alətlərindən saz, tar, kamança, nağara və qədim çalğı aləti çəqanə haqqında məlumat verilib. "Aşıq" və "dastan" sözləri xüsusilə izah olunub.

Dərsliyə bəstəkar Qəmbər Hüseynlinin Tofiq Mütəllibovun sözlərinə bəstələdiyi "Cücələrim" mahnısı da daxil edilib.

## "Turkaz" jurnalının təqdimat mərasimi keçirildi

**Aprelin 6-da Bakıda Türkiyə və Azərbaycanın ortaq nəşri olan "Turkaz magazine" jurnalının təqdimat mərasimi keçirildi. Mərasimdə mətbuat nümayəndələri, millət vəkilləri və sahibkarlar iştirak edirdilər.**

Təqdimatda "Kaspi" Mətbuat və Təhsil Mərkəzinin rəhbəri Sona Vəliyeva, Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, "Proaktiv" şirkətinin direktoru Şahanə Sarı, Azərbaycan-Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı, Bakı Dövlət Universitetinin professoru Cahangir Məmmədli, Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyinin sədri Hüseyin Büyükfırat və başqaları çıxış edərək dərginin iki qardaş ölkə arasında çoxsahəli əlaqələrdə önəmli rol oynayacağına inandıqlarını bildirdilər.






Jurnalın təsisçisi və baş redaktoru Yeganə Quliyeva nəşrin Türkiyədə Azərbaycanı tanıtmaq məqsədi daşıdığını bildirdi: "Bəzən çoxlarına elə gəlir ki, Azərbaycanı Türkiyədə tanıtmağa gərək yoxdur. Əslində çox gərək var. Jurnal bu amala xidmət edəcək".

Bildirək ki, dərginin artıq 7 sayı işıq üzü görüb. Jurnalın saylarında siyasi, iqtisadi, səhiyyə, kulinariya, moda və s. mövzularda xəbərlər, eləcə də tanınmış siyasətçilər, iqtisadçılar, həkimlər və iş adamları ilə müsahibələr yer alır.

**S.Qaliboğlu**

## "Türk tarixinin miraslarını yaşadırıq"

**Məlum olduğu kimi, bu il Türkiyənin Kastamonu şəhəri "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib. Artıq "paytaxt"ın rəsmi açılış mərasimi keçirilib və tədbirlərə start verilib. Bu vəsilə ilə şəhərə maraq, ziyarətçilərin də sayı artmaqdadır. Bəs turistlərin, qonaqların üz tutduqları məkanlar hansılardır? Şəhərdə vəqf abidələri, məscid, karvansara, pirlər və s. çoxluq təşkil etdiyinə görə, bu mövzu ilə bağlı daha geniş məlumat almaq üçün Kastamonu Vəqflər bölgə müdirliyinin (regional idarə) rəhbəri Yavuz Yücebiyik ilə həmsöhbət olduq. Müsahibim əvvəlcə qurum haqqında qısa məlumat verdi.**

- Bölgə müdirliyimiz 1998-ci ildə qurulub. Kastamonu ilə birlikdə Zonquldaq, Karabük və Bartın şəhərlərinə də cavabdehlik daşıyırıq. Bu dörd bölgədə vəqf abidələrinin restavrasiyası və təmiri, vəqf mülklərinin təsnifi və kirayələnməsi, xeyriyyə işləri və s. istiqamətdə fəaliyyət göstəririk.

**- Şəhərdə xeyli sayda vəqf abidələri, tarixi tikililərlə tanış olduq. Bu abidələrin tarixi, meydana çıxması ilə bağlı nə deyə bilərsiniz?**

- Kastamonu XIII əsrdə Hüsaməddin Çoban bəy tərəfindən fəth edildiyi gündən bəri heç vaxt işğal edilməmiş, amma Birinci Dünya müharibəsi və Qurtuluş savaşı - Milli mücadilə dönəmində ən çox şəhid verən şəhərlərdən biridir. Türk-İslam mədəniyyəti ilə tanış olduğu gündən bu yana bu şəhərə ən çox töhfəni vəqf müəssisələri verib. Günümüzdə Çobanoğulları bəyliyi, Candaroğulları bəyliyi və Osmanlı dövlətindən yadigar qalan yüzlərcə vəqf abidələrinin olması da bunun ən gözəl isbatıdır. Bir tərəfdən, şəhərin inkişafı üçün tədbirlər həyata keçirilmiş, digər tərəfdən, dini, sosial və təhsil sərmayələri də unudulmamışdı. Şəhərin abadlığı istiqamətində az qala bütün sahələrdə vəqf müəssisəsinin rolunu görmək olur. Kastamonuda məscid, karvansara, hamam, mədrəsə, körpü, çeşmə kimi vəqf abidələri bütün bəyliklər dövründə mövcud olub. Şəhər sosial həyatın bütün sahələrini əhatə edən vəqf əsərlərinə sahibdir. İstər vəqf sənədlərinə, istərsə də əcdadlardan qalan yadigar tikili və abidələrə baxdığımızda Kastamonunun "vəqf şəhəri" kimi xarakterizə olunmasının təbii olduğunu görürük.

**"Türk millətinin təhsilə, inanca, sosial yardımlaşmaya verdiyi önəmin nümunələrini Kastamonu şəhərinin timsalında görə bilərik"**



**- Kastamonu bu il "Türk dünyasının mədəniyyət paytaxtı"dır. Bu mənada vəqf abidələri "mədəniyyət paytaxtı"na hansı töhfələri verə bilir?**

- Kastamonu Türkiyəmizin sayılıb-seçilən şəhərlərindən biri olmaqla bərabər, açıq hava altında muzeyi xatırladan, hər guşəsində tarixlə iç-içə yaşadığımız şəhərlər sırasındadır. Kastamonu həm də köklü Türk tarixinin də önəmli miraslarından biridir. Türk millətinin təhsilə, inanca, sosial yardımlaşmaya verdiyi önəmin nümunələrini də bu şəhərin timsalında görə bilərik. Türk tarixinin önəmli adlarının (Hüsaməddin Çoban bəy, Candaroğlu İsmayıl bəy, Devlet xatın, Halimi Çelebi və s.) da vəqf abidələri və vəqfiyyələri ilə Türk tarixinə verdikləri töhfənin ünvanı Kastamonu olub.

Burada yüzlərcə tarixi abidə var. Əcdadlarımızdan yadigar qalan Nəsrullah, İsmayıl bəy, Yaqub ağa, İlanlı, Benli Sultan, Seyid Sərçə və Şeyx Şaban Vəli komplekslərinin bizim dövrümüzə gəlib çıxması vəqf mədəniyyətinə şəhərimizin verdiyi dəyəri ortaya qoyur. Bütün bu abidələr bizim üçün eyni önəmə sahibdir.

**- Hər halda, Kastamonuda turistlərin ən çox ziyarət etdikləri abidələr var? Yəni onlar bu mənada necə seçim edirlər?**

- Ən çox ziyarət edilən məkan Şeyx Şaban Vəli kompleksidir. Bu həm də, dediyim kimi, qurumumuzun ən önəmli vəqf əsərlərindən biridir. Kompleksin içində olan, 2007-ci ilin iyun ayında açdığımız Vəqf Əsərləri Muzeyini ildə orta hesabla 150 min insan ziyarət edir. Onu da qeyd edim ki, bu, Vəqflər Baş Müdirliyi muzeyləri arasında ən çox ziyarət edilən ikinci muzeydir. Bundan başqa, Mahmud bəy camisi, Nəsrullah məscidi, Yaqub ağa və İsmayıl bəy kompleksləri də çox sayda ziyarətçinin üz tutduğu abidələrdəndir.

**- Bu abidələrdə təmir-bərpa işləri necə aparılır?**

- Əcdadlarımızdan qalan vəqf əsərlərimizi planlı şəkildə bərpa edirik. Öncə tarixi və sənət dəyəri olan, mövcud durumu göz önündə olan əsərlərimizin restavrasiya layihələrini hazırlayırıq. Sonra da müvafiq plan üzrə bərpa işlərini aparır, bu abidələri həyata qaytarırıq.

**Mehparə Sultanova**
***Ankara***

Azərbaycan Xalq Cümhuriyyəti - 100

**”Mətbuatın, ədəbiyyatın millətin qəlbinə milliyyət və istiqlal toxumu saçan bir əməl olduğu məlumdur... Ey millətin lisanül-qeybi olan şairlər, ədiblər! Millətin əməllərini, ülvi niyyət və məqsədlərini oxşayınız, kəndisinə millət sevgisi, vətən məhəbbəti, hürriyyat eşqi təlqin ediniz”. Sitat Məhəmməd Əmin Rəsulzadənin 1919-cu ildə ”Azərbaycan” qəzetində dərc olunmuş yazısından götürülüb.**

# Yaşam mücadiləsindən dövlət teatrınadək


*“Molla İbrahimxəlil kimyagər”*

Düzdür, Azərbaycan ədəbiyyatının, o cümlədən dramaturgiyasının və demokratik mətbuatının işıqlı nümayəndələri daim öz əsərləri, öz fəaliyyətləri ilə xalqı əsarətdən qurtarmağa, maariflənməyə, öz hüquq və azadlıqları uğrunda mübarizəyə səsləyiblər. Bu meyil XIX əsrin sonu - XX əsrin əvvəlində qələmə sarılan yazıçıların əsərlərində daha çox hiss olunsa da, Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu öz dövrünün qələm əhlinə belə bir müraciət etməkdə haqlı idi. Çünki Şərqin ilk demokratik respublikası irəli sürdüyü ideyaları yaşatmaq naminə söz əhlinə çox dəyər verən insanlarının fikrini, amalını çatdıran, onların bu gününü və gələcəyini fikirləşən düşüncə sahiblərinin qüdrətindən bəhrələnməli idi. Azərbaycan xalqının özünüdərk, milli birlik, müstəqil dövlətçilik ideallarına səsləyən ədiblərin ziyasına ehtiyacı var idi.

**1918. Martla may arasında**

Daim ədəbi prosesin vacib qolu olan dramaturgiya da Cümhuriyyət dövründə xeyli canlanmışdı, üstəlik, həmin dövrdə yaranan əsərlər müasirliyi ilə seçilirdi. Təbii ki, 1918-ci il Azərbaycan, eləcə də qurulan respublikanın paytaxtı elan edilən Bakı şəhəri üçün yaradıcılıq, xüsusən də teatr tamaşası oynamaq baxımından o qədər də rahat il olmamışdı. Əvvəlcə mart soyqırımı ziyalı təbəqəni sarsıtmış, sıravi vətəndaşları teatr kimi əyləncə və zövq məkanından uzaqlaşdırmışdı. Digər tərəfdən, Cümhuriyyətin elan edilməsi teatr cameəsini öz fəaliyyətləri üçün ideoloji seçim qarşısında qoymuşdu. Həm də mart hadisələrindən sonra İrana, Türkiyəyə, Tiflisə, Orta Asiyaya, Rusiyanın Volqaboyu şəhərlərinə yollanmış ayrı-ayrı insanlar, teatr dəstələri yalnız bir neçə aydan sonra vətənə qayıtmışdı. Qulam Məmmədlinin tərtib etdiyi ”Azərbaycan teatrının salnaməsi” ikicildliyinin 1-ci cildinin (Bakı, 1975) 1918-1920-ci illərə aid bölümlərini diqqətlə vərəqləmək kifayətdir ki, qəzetlərdə yerli teatra dair xəbərlərin nə qədər kasad, qastrol səfərləri barədə məlumatların isə nə qədər bol olduğunu aydın görəsən. Məsələn, Azərbaycan teatrına aid xəbərlərin zərrə-zərrə toplandığı salnamədə oxuyuruq:

7 may (1918 - red.), Ənzəli: Əmdiyə teatrı, Bakıdan gəlmiş artistlərdən Abbasbəy Məlikov və Baba Qubinskinin iştirakı ilə: ”Hiyləgər Əbdül”.

...May, Ənzəli: Bakı artistləri, M.M.Kazımovski: ”Molla Cəbi”. Molla Cəbi - Qubinski, Gülnaz - Ə.Krımski.

* * *

”Hümmət” qəzetinin 16 may tarixli sayında isə belə bir xəbər verilib: ”Müsəlman aktyorları ittifaqı” Bakı hadisələrində böyük xəsarətə düçar olduğundan neçə vaxtdır ki, fəaliyyətsiz qalmışdır. İndi həmin aktyorlar ittifaqı ”Şirkət” düzəldib tamaşa göstərmək üçün bu günlərdə Bakıdan Həştərxana gedəcəklər. Oradan da Volqa boyundakı şəhərlərdə tamaşa verəcəklər”.




Nəhayət, oktyabr ayına aid xəbərlərdə Bakının teatr mühitinin dirçəlməsinə dair məlumata rast gəlirik: ”Neçə aylardan bəri qapanmış müsəlman teatrı yavaş-yavaş açılmağa qədəm qoymuşdur. Bu gün Mikado teatrında Hacıbəyov qardaşları müdiriyyəti tərəfindən ”Arşın mal alan”, sabah ”O olmasın, bu olsun” oynanılacaqdır”.

Mart hadisələrindən sonra İrana getmiş Zülfüqar Hacıbəyli Bakıya qayıtdıqdan sonra ”Azərbaycan” qəzetinin 11 oktyabr tarixli sayında İranda çəkdiyi əziyyəti təsvir edən məqalə ilə çıxış edir.

Beləcə, bir neçə faktı sadalamaqla vətən üçün taleyüklü məsələlərin həll olunduğu 1918-ci ildə teatr aləmində necə bir ovqatın hakim kəsildiyini, hansı təbəddülatların baş verdiyini anlamaq olur. ”İstiqlal” qəzeti isə 14 fevral 1919-cu il tarixli sayında ”Müsavat” liderlərindən Mirzəbala Məmmədzadənin məqaləsində Azərbaycan teatrının ”yeni” üsul-idarəyə yaxşı xidmət göstərmədiyi barədə bu fikirlər yer alıb: ”Əl'an xalqımızın yeganə toplanış yeri teatrdır. O da bir yenilik vermir. Onda da yeni həyata doğru bir dəvət, bir tərpəniş yoxdur. Həmin köhnə tas, həmin köhnə hamamdır...”.

Olsun ki, ziyalı, fədakar insan, dövlət müstəqilliyimiz uğrunda mücahid Mirzəbala Məmmədzadə dövlət müstəqilliyi xüsusunda teatrdan daha böyük mənəvi dəstək gözləməkdə haqlı idi. Lakin unutmaq olmaz ki, milli oyanış, milli azadlıq hərəkatı, istiqlaliyyət, müstəqil dövlətçilik məsələləri, yaddaşa qayıdış məhz həmin dövrdə yaranmış, yaxud səhnəyə qoyulan dram əsərlərinin əsas mövzusu idi. O dövrdə yaranan dramaturgiyada Azərbaycan, Turan, Qafqaz, Türk dünyası mövzularına daha çox müraciət edilirdi. Cəlil Məmmədquluzadənin ”Anamın kitabı”, Hüseyn Cavidin ”İblis”, Cəfər Cabbarlının ”Ədirnə fəthi”, ”Trablis müharibəsi, yaxud Ulduz”, İsa bəy Aşurbəylinin dövrün siyasi tələbini nəzərə alaraq yazdığı ”Azərbay və Can” pyesləri elə Azərbaycan cəmiyyətini bürüyən qütbləşmə, Yaxın Şərqdə, o cümlədən Türkiyədə baş verən azadlıq hərəkatından bəhs edir.

**Dağınıqlıqdan birliyə doğru**

Azərbaycan peşəkar milli teatrı yarandığı zamandan öz gücünə, öz xoşuna yaşayıb inkişaf etmiş, yalnız fədakar ziyalılardan və xalqını düşünən mesenatlardan qayğı görmüşdü. Bu münasibət Azərbaycan Xalq Cümhuriyyəti dövrünədək davam etdi.

1918-ci il oktyabrın 18-də Cümhuriyyət hökumətinin iclasında xalq maarifi naziri Nəsib bəy Yusifbəylinin Azərbaycan Dövlət Teatrının yaradılması haqqında məruzəsi dinlənilir. Teatr üçün Mayılov qardaşları teatrının binasının (indiki Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binası, 1911-ci ildə memar N.G.Bayevin rəhbərliyi ilə inşa edilmişdi) alınması barədə qərar qəbul edilir. Qərara əsasən, teatr binası ədalətli qiymətlə dövlətin sərəncamına alınmalı idi. Binanın satınalma qiymətini müəyyənləşdirmək üçün isə xüsusi komissiyanın yaradılması xalq maarifi nazirinə həvalə edilir və bu teatrın indən belə Dövlət teatrı adlandırılması təklif olunur.

İlham Rəhimli ”Azərbaycan teatr tarixi” dərsliyində (Bakı, 2005) yazır ki, bu qərardan irəli gələn vəzifələr həll edildiyi müddətdə ”Müdiriyyət teatr truppası” və əksər yaradıcı insanlar birləşərək afişa və proqramlarda ”Azərbaycan Hökumət Teatrı” adını yazırdılar.

Dövlət teatrının təsisatı isə ləngiyirdi. Teatr Türk Dövlət Teatrı kimi 1919-cu ilin avqust ayında təsis edilir. Qulamrza Şərifzadə (Abbas Mirzə Şərifzadənin qardaşı) direktor, Zülfüqar Hacıbəyli müavin, Məmmədəli Sidqi teatr heyətinin vəkili təyin edilir. Sentyabr-oktyabr aylarında ”Azərbaycan” qəzetində teatra aktyorların işə dəvət edildiyi barədə elan verilir. Oktyabrın 22-də isə truppanın heyəti qəzetdə dərc edilir: Aleksandr İvanov, Abbas Mirzə Şərifzadə və Sidqi Ruhulla - rejissor; Əzim Əzimzadə - rəssam; Qəmər Topuriya, Yeva Olenskaya, Aleksandra Olenskaya, Nataliya Lizma, Məxfurə Yermakova, Panfiliya Tanailidi, Leyla xanım - aktrisa; Həsən Səbri Abdullazadə, Məhəmmədtağı Bağırov, Ələkbər Hüseynzadə, Xəlil Hüseynov, Hüseynağa Hacıbababəyov, Ağasadıq Gəraybəyli, Rza Darablı, Bağır Cabbarzadə, Əlislam Dadaşov, Möhsün Sənani, Q.Mahmudov, Mirabdulla Miriyev, Yunis Nərimanov, Hüseynqulu Sarabski, Sidqi Ruhulla, Mirpaşa Sadıqov, Hacıbaba Şərifzadə, Abbas Mirzə Şərifzadə - aktyor.

Nəhayət, oktyabrın 24-də rəsmi açılış törəni keçirilir. Bu mədəniyyət hadisəsi dörd gün bayram edilir. Açılışda Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyli başda olmaqla bütün hökumət üzvləri iştirak edirlər. Ardıcıl olaraq İsa bəy Aşurbəyovun ”Azərbay və Can”, Şəmsəddin Saminin ”Dəmirçi Gavə”, Cəfər Cabbarlının ”Bakı müharibəsi”, Mirzəbala Məmmədzadənin ”Bakı uğrunda müharibə” tamaşaları göstərilir.

İlin sonuna kimi birləşmiş teatrda H.Bədrəddin və M.Rüfətin ”Əmir Əbül Üla”, M.Hacınskinin ”Yezid ibn Müaviyyə”, C.Cabbarlının ”Trablis müharibəsi, yaxud Ulduz”, J.B.Molyerin ”Zorən təbib”, U.Şekspirin ”Otello”, İ.Rüstəmbəyovun ”Dövlə-tibisəmər”, N.Nərimanovun ”Şamdan bəy”, C.Məmmədquluzadənin ”Ölülər” komediya və dramları, Üzeyir və Zülfüqar Hacıbəylilərin musiqili tamaşaları oynanılır.

Qeyd edildiyi kimi, teatr Türk Hökumət Teatrı adlansa da, tam dövlət təsisatında deyildi və mövcud imkanlar teatrın öz işini daha səmərəli qurmasına, teatr xadimlərinin arzuladığı kimi daha yaxşı və sanballı tamaşalar hazırlanmasına yetmirdi.

Hətta Üzeyir Hacıbəyli öz narazılığını 1920-ci ildə ”Azərbaycan” qəzetində yazdığı ”Zurna” başlıqlı felyetonda bu cür dilə gətirmişdi: ”Bakıda dövlət teatr heyəti qurulsun! deməyə fürsət olsaydı, bu iş Azərbaycan dövlətinin xəzinəsinə yarım milyon pula oturardı. Halbuki, indi o pul xəzinəmizin içində sağ və salim durubdur. Bu da ki maddi mənfəət”.


*“Anamın kitabı”*

Olsun ki, ədəbi və publisistik sözə böyük dəyər verən Cümhuriyyət hökuməti Üzeyir bəyin bu felyetonunda qaldırdığı məsələyə baxaraq, teatrın xeyrinə bir qərar çıxaracaqdı. Sadəcə, buna zaman yetmədi...

Felyeton aprelin 20-də dərc olunmuşdu, səkkiz gündən sonra Cümhuriyyət süqut etdi...

**Gülcahan Mirməmməd**

# Xalqının arzularını ifadə edən yazıçı

## Bişkekdə Mir Cəlalın 110 illik yubileyi qeyd edilib




**Azərbaycanın Qırğızıstandakı səfirliyi bu ölkənin Mədəniyyət, İnformasiya və Turizm Nazirliyi ilə birgə Bişkekdəki Abdılas Maldıbayev adına Milli Akademik Opera və Balet Teatrında görkəmli Azərbaycan yazıçısı, alim, pedaqoq Mir Cəlal Paşayevin (1908-1978) 110 illiyi münasibətilə təntənəli yubiley gecəsi və qala-konsert keçirib.**

Teatrın direktoru Bolotbek Osmonov, Qırğızıstanın mədəniyyət, informasiya və turizm nazirinin müavini Aynura Temirbekova çıxış edərək belə mədəniyyət tədbirlərinin iki qardaş xalqın daha da yaxınlaşmasına xidmət etdiyini vurğulayıblar.

Azərbaycan Milli Məclisinin deputatı Cavanşir Feyziyev çıxışında Mir Cəlal Paşayevin xalqının arzu və duyğularını ifadə edən yazıçı, eyni zamanda Azərbaycan ədəbiyyatşünaslığının yaradıcılarından biri olduğunu diqqətə çatdırıb.

Qırğızıstanın Xalq şairi Mar Bayciyev Mir Cəlalın tələbələrindən biri olması ilə fəxr etdiyini deyib. Ədəbiyyatın insanları yaxınlaşdırdığını bildirən şair qardaş xalqların mədəni əlaqələrinin möhkəmləndirilməsinin vacibliyini qeyd edib.

Azərbaycanın Qırğızıstandakı səfiri Hidayət Orucov Mir Cəlal Paşayevlə bağlı xatirələrini bölüşüb. Qeyd edib ki, Mir Cəlal böyük yazıçı, görkəmli ədəbiyyatşünas alim, mütəfəkkir, bir çox nəsillər üçün əvəzolunmaz pedaqoqdur. Mir Cəlalın ədəbi yaradıcılığı barədə fikirlərini bölüşən səfir yazıçının Azərbaycan nəsrini yeni səviyyəyə yüksəltdiyini söyləyib.

Qala-konsertlə davam edən tədbirdə Azərbaycanın əməkdar artistləri Aqşin Abdullayev və Nərgiz Kərimovanın, Qırğızıstanın əməkdar artistləri Asel Bekbayeva, Aybek Saralayev, Tilek Naymanbayev, Bakıt Ibıkeyev və solist Almaz İstambayevin ifasında Azərbaycan və qırğız bəstəkarlarının əsərləri, eləcə də klassik Qərb musiqisi nümunələri səsləndirilib. Qırğız-Türkiyə "Manas" Universitetinin Türk dünyası orkestri və solistləri Azərbaycanın bəstəkar və xalq mahnılarını təqdim ediblər. İfaçıları Qırğızıstanın Əməkdar artisti R.Osmonaliyevin rəhbərliyi ilə A.Cumaxmatov adına akademik simfonik orkestri müşayiət edib.

# Opera səhnəmizin Həqiqəti

## "Unudulmayanlar" layihəsində Həqiqət Rzayeva xatırlandı

**Aprelin 6-da Beynəlxalq Muğam Mərkəzində "Unudulmayanlar" layihəsi çərçivəsində növbəti musiqili gecə keçirildi. Tədbir görkəmli xanəndə, Xalq artisti Həqiqət Rzayevaya həsr edilmişdi.**







Yazıçı, şair, filologiya üzrə fəlsəfə doktoru Gülhüseyn Kazımlı tədbiri açaraq sənətkarın milli musiqimizin inkişafı və təbliğində xidmətlərindən danışdı. Bildirildi ki, Həqiqət Əli qızı Rzayeva 10 may 1907-ci ildə Lənkəran şəhərində dünyaya göz açıb. 1923-cü ildə Bakıda Pedaqoji Texnikuma daxil olub. Burada həm də dram dərnəyinə yazılır. Həmin dövrdə Bakıda "Damğa" adlı satirik teatr açılır. Sənətə həvəsi onu bu teatra gətirir. Bəstəkar Müslüm Maqomayev H.Rzayevanın səsini yoxlayır və onu Azərbaycan Opera Teatrında işə götürür. O, 1928-1932-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının Muğam şöbəsində Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski və Qurban Pirimov kimi görkəmli sənətkarlardan dərs alır. Vurğulandı ki, 1927-1952-ci illərdə Opera və Balet Teatrının solisti olmuş Həqiqət Rzayeva Ərəbzəngi ("Şah İsmayıl", M.Maqomayev), Leyli, Əsli, Telli ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın mal alan", Ü.Hacıbəyli), Şahsənəm ("Aşıq Qərib", Z.Hacıbəyov) və s. obrazları yüksək peşəkarlıqla yaradıb. Sənətkar 2 avqust 1969-cu ildə vəfat edib.

Xalq artisti Arif Babayev H.Rzayevanın sənətkarlıq qabiliyyətindən danışdı. Qeyd etdi ki, opera səhnəsində Ərəbzəngi, Leyli, Əsli və Şahsənəm kimi fərqli xarakter və idealları olan obrazları canlandırmaq hər sənətkara nəsib olmur.

Xalq artisti Canəli Əkbərov bildirdi ki, Həqiqət xanım həm də pedaqoji fəaliyyət göstərib və gələcək kadrların yetişməsi üçün böyük səylə çalışıb. O, sənətkarla bağlı maraqlı bir faktı da diqqətə çatdırdı. Qeyd etdi ki, 1939-cu ildə Moskvada Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyü zamanı xanəndə "Arşın mal alan" operasında Telli obrazını özünəməxsus şəkildə ifa edir. Sonralar dahi Üzeyir bəy Həqiqət xanıma danışırmış ki, "Arşın mal alan"da Tellinin lal səhnəsinə baxan İ.Stalin belə deyib: "Bax, budur aktrisa!"

Çıxışlardan sonra bədii hissəyə keçildi, H.Rzayevanın sənət yolunu əks etdirən videoçarx nümayiş olundu. Əməkdar artistlər Anar Şuşalı "Qara tellər", Sevinc Sarıyeva "Ağ gül, qırmızı gül, bir də sarı gül" xalq mahnılarını ifa etdilər. Rəvanə Qurbanova və Əməkdar artist Səbuhi İbayev "Leyli və Məcnun" operasından duet, Əməkdar artist Nuriyyə Hüseynova "Qatar" təsnifini, Atabəy İsmayılov tarda "Çahargah" rapsodiyasını səsləndirdilər.

Sonda sənətkarın nəvəsi Ülviyyə Manafova çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılara öz dərin təşəkkürünü bildirdi.

**Savalan Fərəcov**



## Bakı Xoreoqrafiya Akademiyasında növbəti ustad dərsləri

Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Klassik rəqs kafedrasının müdiri, pedaqoji elmlər namizədi, dosent Yelena Perlina Bakı Xoreoqrafiya Akademiyası (BXA) rəhbərliyinin dəvəti ilə təhsil kompleksində ustad dərsləri keçib.

Y.Perlina ustad dərsləri zamanı tələbələrə klassik rəqs sənətinin incəlikləri barədə geniş məlumat verib, onlara müxtəlif xoreoqrafik elementlər və nadir rəqs hərəkətlərini nümayiş etdirib. Dərslərdə iştirak edən müəllim heyətinə də öz tövsiyələrini verən qonaq dünyada xoreoqrafiya sahəsində gedən proseslər və yaranan yeni cərəyanlar haqqında danışıb.

Dərsdən sonra təəssüratını bölüşən Y.Perlina qeyd edib ki, tələbələrin nümayiş etdirdikləri rəqs hərəkətləri və müəllimlərin tədris metodikası Bakı Xoreoqrafiya Akademiyasının tədris prosesinin Rusiyanın A.Y.Vaqanova adına Rus Baleti Akademiyasının ənənələrini özündə ehtiva etməsinin bariz nümunəsidir. Çünki Rus Baleti Akademiyası özündə dünya klassik rəqsinin ən qədim elementlərini olduğu kimi qoruyub saxlamağa müvəffəq olub. O, belə görüşlərin davamlı olacağına ümidvar olduğunu deyərək qonaqpərvərliyə görə akademiyanın rəhbərliyinə minnətdarlığını bildirib.

## Yeni teatr portalı fəaliyyətə başlayıb

Azərbaycan media məkanında teatro.az elektron ünvanlı yeni sayt fəaliyyətə başlayıb. Portalın təsisçiləri sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vidadi Qafarov və teatrşünas Elçin Cəfərovdur.

Milli səhnə sənətimizi dünya teatr prosesi kontekstində işıqlandırmağı nəzərdə tutan portal teatrşünaslıq və teatr jurnalistikasının inkişafına töhfə verməyi qarşıya məqsəd qoyub. Teatr sənətinin sintetik təbiəti nəzərə alınaraq, portalda kino, televiziya, sirk və digər sənət növlərinə də yer ayrılıb.

## "Yeni nəfəs" ssenari müsabiqəsi elan edilib

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı Azərbaycan kinosunun yaranmasının 120 illiyi ilə bağlı "Yeni nəfəs - III" adlı qısametrajlı ssenari müsabiqəsi elan edib.

İttifaqdan bildiriblər ki, müsabiqə kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirmək məqsədilə keçirilir. Müsabiqənin şərtlərinə görə, yaşı 35-dək olan bütün şəxslər istənilən janrda, bədii, sənədli və animasiya ssenariləri təqdim edə bilər. Ssenarinin hüquqları müəllifə məxsus olmalı, satılmamalı və çəkiliş dövründə, orijinal, yəni ekranlaşdırılmamış olmalıdır.

Ssenarilər 20 səhifədən çox olmamaq şərtilə üç nüsxədə, çap olunmuş və CD diskdə təqdim olunmalı, müəllifin ad və soyadı qeyd olunmamalıdır. Müəllif ssenari ilə birgə tərcümeyi-halını da təqdim etməlidir. Ssenarilər sentyabrın 25-dək Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının ünvanına göndərilməlidir.

Müsabiqədə dörd mükafat (Qran-pri - 2500 manat və ssenarinin ekranlaşdırılması, I, II, III yerlər üçün müvafiq olaraq 2000, 1500, 1000 manat) nəzərdə tutulur.



# Almanların Cənubi Qafqaza köçünün 200 illiyinə həsr edilmiş seminar

Aprelin 7-də Bakıda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə və almanların Cənubi Qafqaza köçünün 200 illiyinə həsr edilmiş "Azərbaycanda almanların tarixinə kulturoloji baxış" mövzusunda seminar təşkil olunub.

Tədbir "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının, Almaniyanın ölkəmizdəki səfirliyinin birgə təşkilatçılığı ilə keçirilib.

Seminarda "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının rəhbəri, professor Fuad Məmmədov və texnika üzrə fəlsəfə doktoru Səlahəddin Eyyubov giriş sözü söyləyiblər.

Sonra Almaniyanın Azərbaycandakı səfirliyinin birinci katibi Paul Amman, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini, Göygöl (keçmiş Helenendorf) rayonundan millət vəkili Rövşən Rzayev, tibb üzrə fəlsəfə doktoru Əmirxan Eyyubov, psixoterapevt Ramazan Əskərli, diplomat Hüseynağa Sadıxov mövzu ətrafında çıxış ediblər.

Çıxışlarda Almaniya-Azərbaycan mədəni əməkdaşlığı, müasir dövrdə Azərbaycan və Almaniya parlamentləri arasında əlaqələr, XIX əsrin əvvəllərində almanların Azərbaycana köçünün səbəbləri barədə danışıblar.

Seminarın gedişində İsrailin Hayfa şəhəri ilə videobağlantı qurulub. Hayfa Universitetinin sabiq rektoru, professor Yossi ben Artzi və Bəhai icmasının üzvü Alina Süleymanova videokörpü vasitəsilə seminara qoşulublar.

## AFİŞA 12-13 aprel

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı**
**Füzuli meydanı 1**

| | | |
|---|---|---|
| 13 aprel | Ə.Əmirli "Şah Qacar" (ingilis dilində titrlərlə) | 19.00 |

**Azərbaycan Dövlət Musiqili Teatrı**
**Zərifə Əliyeva küçəsi 8**

| | | |
|---|---|---|
| 13 aprel | F.Sücəddinov, T.Vəliyeva - "Mən dəyərəm min cavana" | 19.00 |

**Azərbaycan Dövlət Rus Dram Teatrı**
**Xaqani küçəsi 7**

| | | |
|---|---|---|
| 13 aprel | N.Gəncəvi – "Yeddi gözəl" (ingilis dilində titrlərlə) | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı**
**Neftçilər prospekti 36**

| | | |
|---|---|---|
| 13 aprel | Ş.Perro - "Çəkməli pişik"<br>T.Ağayev - "Qoçaq Əhməd" (rus dilində) | 12.00, 14.00<br>16.00 |

**Yuğ Dövlət Teatrı**
**Neftçilər prospekti 36 (Kukla Teatrının binası)**

| | | |
|---|---|---|
| 13 aprel | T.Vahid - "Quş dili" | 19.00 |

**Kamera və Orqan Musiqisi Zalı**
**28 May 17**

| | | |
|---|---|---|
| 12 aprel | "Gənclərə dəstək" layihəsi çərçivəsində konsert | 19.00 |
| 13 aprel | Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin konserti<br>Bədii rəhbər və baş dirijor - Teymur Göyçayev | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi**
**Dənizkənarı Milli Park**

| | | |
|---|---|---|
| 12 aprel | "Aşıq musiqisi axşamları" layihəsi - "Yada salaq Aşıq Ədaləti" adlı konsert | 19.00 |
| 13 aprel | "Bir bahar axşamı" adlı konsert (ifa edir Nizami Əliyev - fortepiano) | 19.00 |

# "Sarmaşıqlı məzarlar"

## 1918-ci ildə Azərbaycanda şəhid olmuş türk hərbçilərindən bəhs edən filmin təqdimatı

**Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun "Mədəni maarifləndirmə" proqramı çərçivəsində "Sarmaşıqlı məzarlar" sənədli filminin təqdimatı olub.**

Fondun icraçı direktoru Oktay Səmədov maarifçilik işində sənədli filmlərin rolundan danışıb. Bildirilib ki, "Aranfilm"in çəkdiyi "Sarmaşıqlı məzarlar" filmi 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinə köməyə gəlmiş və döyüşlərdə şəhid olmuş türk əsgərlərinin xatirəsinə həsr edilib.

Yaradıcılıq prosesində baş verən maraqlı məqamlardan danışan "Aranfilm"in bədii rəhbəri Tahir Tahiroviç sənədli filmlərin gənclərin dünyagörüşünün və elmi biliklərinin artırılmasında rolundan bəhs edib. O, filmin çəkilişlərinə göstərdikləri dəstəyə görə Bilik Fonduna və Bakı Yunus Əmrə İnstitutunun rəhbərliyinə minnətdarlığını bildirib.

Bakı Yunus Əmrə İnstitutunun rəhbəri Cihan Özdemir təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində şəhid türk əsgərlərinin məzarlarının olduğunu deyib. O, 1918-ci ildə Osmanlı hərbçilərinin Azərbaycana öz qardaşlarına kömək etməyə gəldiklərini vurğulayıb.




Sonra film nümayiş olunub. Ekran əsərində babasının məzarını axtarıb tapmağa gəlmiş türkiyəli gəncin ona bələdçilik edən araşdırmaçının köməyi ilə Azərbaycanın bölgələrində olan naməlum türk əsgərlərinin məzarlarını ziyarət etməsi göstərilir. Bələdçi məzarların hər biri barədə məlumat verir.




***Azərbaycan***

**11 aprel 1854** - Yazıçı, dramaturq, publisist Nəcəf bəy Vəzirov (1854 - 9.7.1926) Şuşada anadan olub. Bəzi mənbələrdə doğum günü kimi 2, 7 aprel də göstərilir. "Müsibəti-Fəxrəddin" pyesi ilə Azərbaycan ədəbiyyatında faciə janrının əsasını qoyub. «Ev tərbiyəsinin bir şəkli», "Yağışdan çıxdıq, yağmura düşdük" və s. komediyaların müəllifidir.



**11 aprel 1914** - Xalq yazıçısı Qılman İlkin (Qılman İsabala oğlu Musayev; 1914 - 6.11.2009) Bakının Mərdəkan kəndində doğulub. Əsərləri: "Şimal küləyi", "Dəniz qapısı", "Ömrün oğlan çağları", "Dəniz həmişə göy olmur", "Madam Qədri" və s. "Kölgələr sürünür", "Yenilməz batalyon" filmlərinin ssenarisini yazıb.

**12 aprel 1866** - Teatr və maarif xadimi Əbülqasım Sultanov (1866 - 1916) anadan olub. Naxçıvan teatrında aktyor kimi çıxış edib. Molla Nəsrəddinin lətifələrini rus dilinə çevirib, "Ədəbi nümunələr müntəxəbatı"nı (XIX-XX əsrlər) tərtib edib.



**12 aprel 1889** - Məşhur xanəndə, Xalq artisti Seyid Şuşinski (Mir Mövsüm ağa Seyid İbrahim oğlu; 1889 - 1.10.1965) Şuşa qəzasının Horadiz kəndində (indiki Füzuli rayonunun kəndi) anadan olub. 1920-ci illərdə Azərbaycan Dövlət Dram Teatrında çalışıb, 30-60-cı illərdə Dövlət Filarmoniyasının solisti olub, pedaqoji fəaliyyət göstərib.

**12 aprel 1903** - Azərbaycan mətbuatının, ictimai fikrinin inkişafında mühüm rol oynamış «Şərqi-Rus» qəzeti Tiflisdə nəşrə başlayıb. Şərqşünas-alim Məhəmməd ağa Şahtaxtinskinin redaktoru olduğu qəzet tanınmış yazarları ətrafında birləşdirmişdi. Məhəmməd Əmin Rəsulzadənin ilk mətbu yazısı burada dərc olunub. Qəzet iki il nəşr olunub.

**12 aprel 1907** - Tanınmış folklorşünas, dramaturq Məmmədhüseyn Abbasqulu oğlu Təhmasib (1907 - 5.10.1982) anadan olub. "Kitabi-Dədə Qorqud" eposunun, dastanların, nağılların toplanması və tədqiqində mühüm xidməti var. Ssenariləri əsasında "Bir qalanın sirri", "Onu bağışlamaq olarmı?" filmləri çəkilib.

**12 aprel 1912** - Əməkdar artist, aktyor Məmmədağa Ağakərim oğlu Dadaşov (1912 - 3.12.1996) anadan olub. Gənc Tamaşaçılar Teatrının yaradıcılarındandır, ömrünün sonunadək burada çalışıb. "Dədə Qorqud", "Yol əhvalatı" filmlərində çəkilib.



**13 aprel 1918** - Tanınmış kinooperator, Əməkdar incəsənət xadimi Arif Əmir oğlu Nərimanbəyov (1918 - 16.5.1992) anadan olub. Çəkdiyi filmlər: "Bəxtiyar", "Qızmar günəş altında", "Bir qalanın sirri", "Bizim Cəbiş müəllim", "İnsan məskən salır", "Onun bəlalı sevgisi" və s.

**13 aprel 1929** - Şair, Əməkdar incəsənət xadimi Tofiq Mütəllim oğlu Mütəllibov (1929 - 2.11.1992) anadan olub. Uşaqlar üçün çoxsaylı əsərlərin müəllifidir.

**13 aprel 1946** - Rejissor, Xalq artisti Ramiz Həsənoğlu (Mirzəyev) İrəvan şəhərində doğulub. "Ötən ilin son gecəsi", "Topal Teymur", "Ac həriflər", "Nigarançılıq" və s. teletamaşalara, "Cavid ömrü", "Sübhün səfiri" filmlərinə quruluş verib.

***Dünya***

**11 aprel 1894** - Məşhur sirk ustası, illüzionist, Rusiyanın Xalq artisti Emil Kio (Qirşfeld-Renard; 1894-1965) anadan olub.

**11 aprel 1914** - Kanada kinorejissoru və rəssamı, multiplikator, "Oskar" mükafatı laureatı Norman MakLaren (1914-1987) anadan olub.

**12 aprel 1928** - Məşhur gürcü opera müğənnisi, SSRİ Xalq artisti Zurab Ancaparidze (1928 -12.4.1997) anadan olub.

**12 aprel 1956** - Kuba əsilli Amerika kinoaktyoru Endi Qarsia (Andy Garcia - Andres Arturo Garcia Menendez) anadan olub. "Xaç atası -3", "Qara yağış" və s. filmlərdə çəkilib.



**12 aprel 1823** - Rus dramaturqu Aleksandr Nikolayeviç Ostrovski (1823-1886) anadan olub. "Kasıblıq eyib deyil", "Gəlirli yer", "Tufan", "Cehizsiz qız", "Balzaminovun evlənməsi" və s. pyeslərin müəllifidir. Bir sıra pyesləri əsasında filmlər çəkilib.

**13 aprel 1883** - Rus bəstəkarı və dirijoru Aleksandr Aleksandrov (1883-1946) anadan olub. Keçmiş SSRİ-nin dövlət himninin musiqisinin, populyar vətənpərvərlik mahnılarının ("Müqəddəs müharibə" və s.) müəllifidir. Sovet Ordusu mahnı və rəqs ansamblının bədii rəhbəri olub.



**13 aprel 1906** - İrland yazıçısı və dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı (1969) laureatı Semuel Bekket (Samuel Beckett; 1906-1989) anadan olub. Absurd teatrının yaradıcılarındandır. Əsərləri: "Qodonun intizarında", "Oyunun sonu" (pyes), "Molloy", "Adsız" (roman). Bəstəkar Fərəc Qarayev yazıçının "Qodonun intizarında" əsərinə musiqi yazıb.

**13 aprel 1939** - İrland şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1995) laureatı Şeymas Hini (Seamus Justin Heaney) anadan olub.

*Hazırladı: Vüqar Orxan*

# Qürbətdə keçən sənətkar ömrü

**100 yaşını qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin ömrü qısa olsa da, o dövrdə ölkə həyatının bütün sahələrində, o cümlədən maarifçiliyin inkişafı istiqamətində mühüm addımlar atılmışdı. Bu sahədə həyata keçirilən əhəmiyyətli işlərdən biri də 100 azərbaycanlı gəncin hökumətin vəsaiti hesabına ali təhsil almaq üçün Avropanın müxtəlif ölkələrinə oxumağa göndərilməsi idi.**

Lakin təəssüflər olsun ki, çətin şərtlər altında cəmi 23 ay fəaliyyət göstərən Xalq Cümhuriyyəti 1920-ci ildə bolşevik Rusiyası tərəfindən süquta uğradıldıqdan sonra əksəriyyəti Vətənə dönə bilməyən həmin gənclərin də taleyi ürəkaçan olmadı. Qürbətdə keşməkeşli həyat yaşayan belə soydaşlarımızdan biri Zeynal bəy Əlizadədir.

Zeynalabdin bəy Hacı Ağabəy oğlu Əliyev 24 aprel 1894-cü ildə Bakıda dünyaya göz açıb. Gənc ikən yaradıcılığa maraq göstərir, ağac üzərində oyma ilə məşğul olur, gildən fiqurlar hazırlayır, rəsmlər çəkirdi. Zeynal rəssam olmaq istəsə də, 1915-ci ildə "Realnı" məktəbi bitirdikdən sonra atasının təkidi ilə Moskva Kommersiya İnstitutuna qəbul olunur.

1918-ci ilin payızında Bakıya qayıdır. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyətinin Poçt və Teleqraf Nazirliyində xüsusi tapşırıqlar üzrə baş məmur vəzifəsinə təyin olunur. Bununla belə, o, rəssamlıq sənətinə olan marağından əl çəkmir, poçt markalarının bədii tərtibat işlərini yerinə yetirir. 1919-cu ilin iyununda Poçt və Teleqraf Nazirliyinin poçt markaları layihəsinin icrası Zeynal bəy Əlizadəyə həvalə edilir.

O, təhsilini davam etdirmək üçün Maarif Nazirliyinə müraciət edir. Müsabiqədən sonra Cümhuriyyət Parlamentinin 1 sentyabr 1919-cu il tarixli qərarına əsasən, dövlət hesabına ali təhsil almaq üçün Roma Kral Rəssamlıq Akademiyasına göndərilir. Ancaq Azərbaycanda siyasi rejim dəyişəndən sonra xarici ölkələrdə təhsil alan tələbələrə verilən təqaüd kəsilir. Z.Əlizadə də əksər tələbələr kimi maddi sıxıntı keçirir. Həmin ağır günlərdə Parisdə yaşayan Ceyhun bəy Hacıbəyli onun köməyinə çatır. 1922-ci ildə C.Hacıbəyliyə göndərdiyi bir məktubda təhsil alması haqqında məlumat verir və maddi yardıma görə minnətdarlığını bildirir. O, məktubda həmçinin öz sərgilərindən də



söhbət açır. Ceyhun bəy də təhsilini başa vurması, fərdi sərgisini açması üçün ondan köməyini əsirgəmir.

Z.Əlizadə Roma Kral Rəssamlıq Akademiyasını 1923-cü ildə "heykəltəraşlıq professoru" diplomu ilə bitirir. Azərbaycana qayıtmaq istəsə də, bu addımı atmağa cəsarət etmir. İtaliyada güzəranını təsadüfi işlərlə, əsərlərini satmaqla təmin edir. Dünyanın ən görkəmli sənətkarlarının olduğu İtaliyada sifarişlərə ümid bağlamaq çox da nəticə verə bilməzdi. Lakin o, qarşılaşdığı çətinlikləri aradan qaldıra bilir. İtaliyada istedadlı heykəltəraş kimi tanınır, sifarişlər almağa başlayır. Hətta yaratdığı əsərlərdən ibarət böyük fərdi sərgi də təşkil edir.

Araşdırmalarda bildirilir ki, İtaliyanın Peruca şəhərində böyük alman bəstəkarı Lüdviq van Bethovenin və rusiyalı mühacir, La Skala Teatrının məşhur opera müğənnisi Sigizmund Zaleskinin büstləri Zeynal Əlizadə yaradıcılığının məhsuludur.

O, 1925-ci ildə anası Məryəmnisə xanımın xəstə olduğu barədə xəbər alır. Bakıya gəlmək istəyir. Ancaq vətəndən gələn bir-birindən acı xəbərlər onu bu fikirdən daşınmağa və qürbətdə qalmağa məcbur edir. Gənc rəssam 27 avqust 1927-ci ildə C.Hacıbəyliyə ünvanladığı məktubda yazırdı ki, akademiyanı bitirib, amma iş tapa bilmir. Maddi çətinlik çəkdiyi üçün Braziliyaya köçmək istəyir. Məktubda o, həmçinin Bakıdan gəlmiş bacısı Saranı və Berlində tələbə olan İbad Əliyevi də xatırlayır.

Tədqiqatçı Nəriman Əbülrəhmanlı isə araşdırmasında yazır ki, Z.Əlizadənin sonrakı yaradıcılıq fəaliyyəti ABŞ və Türkiyə ilə bağlı olub. O, daimi iş tapmaq ümidi ilə Türkiyəyə gedib. Orada Azərbaycanın memarlıq və incəsənət inciləri barədə məqalələr dərc etdirib. 1934-cü ildə "Azərbaycan yurd bilgisi" dərgisində Atəşgah məbədi, Şirvanşahlar sarayı, Bayıl burnu, Qız qalası, Bibiheybət məscidi ilə bağlı dərc etdirdiyi məqalələrinə "Heykəltəraş Zeynal A.Saray" imzasını qoyub. 1954-cü ildə həmin dərgidə "Azərbaycanlı Zərdüşt məbədinin tarixi" adlı məqaləsi isə "Zeynal Akkoç" imzası ilə çap olunub.

Peşəkar təhsil almış ilk azərbaycanlı heykəltəraş Z.Əlizadənin vəfat tarixi indiyəcən müəyyən olunmayıb. Ötən əsrin ikinci yarısında bu sənətkar haqqında araşdırma aparan Mövsüm Əliyev müəyyən faktlar əldə edib. Bu mövzuda yazdığı məqalələrlə oxuculara itkin heykəltəraşımız barədə qısa məlumat verib. Z.Əlizadənin ötən əsrin 50-ci illərində İtaliyada vəfat etdiyi güman edilir.

**Savalan Fərəcov**

# Görkəmli kitabxanaşünas, biblioqraf, dəyərli alim və müəllim



Tanınmış biblioqraf alim, Əməkdar mədəniyyət işçisi, professor Zöhrab Əliyev 85 yaşını qeyd edir. Uzun illər Bakı Dövlət Universitetində dekan, kafedra müdiri, Elmi şuranın üzvü kimi ləyaqətlə çalışmış professor bu gün də hər bir kitabxanaşünas-biblioqrafın dəyərli məsləhətlər aldığı görkəmli alimlərimizdəndir.

Professor Zöhrab Hüseyn oğlu Əliyev 1933-cü ildə Ucar rayonunun Qazyan kəndində dünyaya göz açmışdır. 1954-cü ildə BDU-nun Filologiya fakültəsinin Kitabxanaçılıq şöbəsini bitirmiş, daha sonra Biblioqrafiya kafedrası üzrə aspiranturada oxumuşdur. 1963-cü ildə "Azərbaycanda biblioqrafiya işinin inkişafı (1920-1958-ci illər)" adlı namizədlik dissertasiyasını uğurla müdafiə edərək respublikamızda biblioqrafiyaşünaslığın meydana gəlməsi və inkişafı tarixini elmi əsaslarla tədqiq edən öncül mütəxəssislərdən biri olmuşdur. Elmi tədqiqat prosesində o təkcə Azərbaycan kitabxanalarının fondlarında deyil, Moskva və Sankt-Peterburqun iri kitabxanalarında mühafizə olunan sənədlərlə də yaxından tanış olmuş, bu mənbələrdən səmərəli istifadə etməklə mühüm elmi əsər meydana gətirmişdir. Alim bir müddət M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında və respublikanın Mədəniyyət Nazirliyində çalışmış, 1960-cı ildən BDU-nun Kitabxanaşünaslıq kafedrasında müəllim, 1970-1980-ci illərdə Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, 1984-cü ildən 2007-ci ilə qədər Biblioqrafiyaşünaslıq kafedrasının müdiri işləmişdir.

50 illik elmi-pedaqoji fəaliyyəti ərzində Z.Əliyev Kitabxanaçılıq-informasiya fakültəsində biblioqrafik fənlər üzrə tədris prosesinin yüksək səviyyədə təşkili və həyata keçirilməsinə rəhbərlik etmiş, bir sıra ölkələrdə qabaqcıl təcrübəni öyrənmiş, biblioqrafiyaşünaslıq elmi məktəbinin əsasını qoymuşdur. Alimin "Kitabxanada məlumat-biblioqrafiya aparatının təşkili", "Tövsiyə biblioqrafik vəsaitlərin tərtibi metodikası", "Azərbaycan biblioqrafiyasının tarixi", "Ümumi biblioqrafiyaşünaslıq" və digər kitabları mütəxəssislərin dəfələrlə müraciət etdiyi, sahə üzrə elmi tədqiqatlarda geniş istifadə edilən dəyərli elmi məxəzlərdir.

Professorun elmi rəhbərliyi altında neçə-neçə biblioqraf alimlər yetişmiş, müvəffəqiyyətlə namizədlik dissertasiyaları yazıb müdafiə etmişdir.

Bütün şüurlu həyatını Azərbaycanda ali kitabxanaçılıq-biblioqrafiya təhsilinin yaradılması, təkmilləşdirilməsi və inkişafına həsr etmiş Zöhrab müəllim öz yetirmələrinin qəlbində istedadlı alim, ziyalı şəxsiyyət kimi şərəfli yer tutmuşdur. Onun tələbələrinə öyrətdikləri neçə-neçə zehinləri işıqlandırır, neçə-neçə sanballı elmi tədqiqat işlərinin ərsəyə gəlməsinə, gənc və bacarıqlı alimlərin yetişməsinə səbəb olur. Əziz müəllimimizi 85 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirik, möhkəm cansağlığı və könül xoşluğu arzulayırıq.

**Nadir İsmayılov**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

**Adilə Abdullayeva**
***tarix üzrə fəlsəfə doktoru***

# "...Xalqımızın müstəqil yaşayacağına inanırdıq"




Azərbaycan Tərcümə Mərkəzinin yeni nəşri - Əlimərdan bəy Topçubaşovun "...Xalqımızın müstəqil yaşayacağına inanırdıq" kitabı çapdan çıxıb.

Çar Rusiyasındakı çoxmilyonlu türk-müsəlman xalqlarının sınanmış lideri, Azərbaycan Xalq Cümhuriyyətinin ideoloqlarından və ən fəal xadimlərindən biri, Azərbaycan Parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun siyasi-publisistik irsi ilk dəfədir ki, geniş şəkildə Azərbaycan oxucusuna təqdim edilir. Kitabda görkəmli ictimai-siyasi xadimin məqalələri, nitqləri, səfər qeydləri, diplomatik yazışmaları, tarixi araşdırmaları, bədii publisistikası və zəngin epistolyar irsindən nümunələr toplanıb.

Böyük şəxsiyyətin zəngin fəaliyyətini sənədli faktlar və materiallarla təqdim edən kitab Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə və həyatını Cümhuriyyət idealının gerçəkləşməsi uğrunda fəda edənlərin əziz xatirəsinə ithaf olunur.

Nəşrin tərtibçisi Vilayət Quliyev, redaktoru Afaq Məsuddur.

**Türkiyədə azərbaycanlı professor Aygün Əttarın "Erməniçilik müasir dövrün böyük problemi kimi" əsəri çap olunub.**

# Ermənilərin saxta iddialarını və qanlı cinayətlərini ifşa edən kitab

Kitabda 1917-ci ildə Rusiyada baş vermiş bolşevik inqilabının Qafqaza, o cümlədən Azərbaycanın ictimai-siyasi həyatına təsiri, bolşeviklərin ermənilərdən Azərbaycana qarşı istifadə etməsi, saxta "erməni məsələsi"nin siyasi mahiyyəti, ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinin bütövlükdə Qafqaz bölgəsi üçün yaratdığı fəsadlar diqqətə çatdırılır. Həmçinin XX əsrin əvvəllərində Anadoluda erməni silahlı dəstələrinin törətdikləri ağır cinayətlər, eləcə də Azərbaycan xalqının məruz qaldığı soyqırımları, deportasiyalar, hazırda ölkəmizə qarşı davam etdirilən işğalçılıq siyasətindən bəhs olunur.

Əsərdə Zəngəzurun Ermənistana birləşdirilməsi, erməni daşnaklarının Azərbaycanda törətdikləri 1918-ci ilin mart soyqırımı, habelə 1990-cı ilin 20 Yanvar faciəsi və Xocalı soyqırımının səbəb və nəticələri müfəssəl olaraq bir-birinə bağlı hadisələr kimi təhlil olunub. Müəllif "Böyük Ermənistan" illüziyasının ortaya çıxardığı "erməniçilik" missiyasının sülhsevər dünya üçün böyük təhlükə olduğunu tarixi faktlar və məntiqi mülahizələrlə əsaslandırıb.

Elmi ictimaiyyət və geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitab, həmçinin saxta "erməni məsələsi"nin Türkiyə üçün yaratdığı böyük təhlükələr mövzusunda məqalələrin hazırlanması baxımından, erməni din xadimləri və millətçi dairələrindən qaynaqlanaraq ortaya çıxarılan əsassız iddialara qarşı dəyərli elmi vəsaitdir.



Mədəniyyət
Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
www.medeniyyet.az
11 APREL 2018
28 [1518]

# “Kəlağayı - Azərbaycan ipəyinin incisi”

## Özbək və rus dillərində kitab işıq üzü görüb



Ölkəmizin Özbəkistandakı səfirliyinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) zəngin mədəni irsimizin təbliği istiqamətində növbəti layihəsi Azərbaycan kəlağayılarına həsr edilib. Özbək və rus dillərində hazırlanan “Kəlağayı - Azərbaycan ipəyinin incisi” kitabı Daşkənddəki “Mashur-press” nəşriyyatında çapdan çıxıb.

Kitabın ön sözünün müəllifi Bakı Dövlət Universitetinin professoru, Basqal İpək Mərkəzinin direktoru Rəna İbrahimbəyova, tərtibçisi AMM-in direktoru Samir Abbasovdur.

Kitabda Azərbaycan mədəniyyətinin rəmzlərindən biri olan qədim kəlağayı sənəti, Azərbaycanda ipəkçiliyin tarixi, onun inkişaf mərhələləri, dünyanın tanınmış alimlərinin, səyyahlarının bu barədə fikirləri öz əksini tapıb. Nəşrdə Azərbaycanda ənənəvi qadın baş örtüyü olan kəlağayının hazırlanması, nəfis Azərbaycan ipəyinin üzərində vurulan füsunkar naxışlar, bu naxışların mənası, elmi açıqlaması, kəlağayının dünyaya tanıdılması, Azərbaycanın kəlağayı sənətinin 2014-cü ildə UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi və s. barədə məlumatlar verilir.

Nəşrdə 2016-cı ildə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə nəşr edilən “Kəlağayı” kitabının materiallarından da istifadə edilib. Kitab geniş ictimaiyyətə təqdim olunacaq, Özbəkistanın aparıcı kitabxanalarına, ali məktəblərinə, tədqiqat mərkəzlərinə, habelə ipəkçilik sahəsi üzrə mütəxəssislərə göndəriləcək.

# Ailəvi nağıl-tamaşa nümayiş olunacaq




İyunun 3-də Bakıda ilk dəfə Heydər Əliyev Sarayında 1 iyun - Beynəlxalq uşaqların müdafiəsi günü münasibətilə uşaqlar üçün “Veçerinka u Monstrov” (“Bədheybətlərlə əyləncə axşamı”) adlı ailəvi nağıl-tamaşa göstəriləcək.

Heydər Əliyev Sarayından bildirilib ki, Rusiyanın sevilən teatr və kino ulduzları Yeqor Salnikov və Andrey Sviridov parlaq və baxımlı çıxışları, həmçinin sirk artistləri tryuklar və illüziyalar ilə uşaqları sevindirəcək, onlara gözəl əhval-ruhiyyə bəxş edəcəklər.

# Tarzən Sahib Paşazadə məşhur müğənni Sami Yusiflə birgə çıxış edib



Aprelin 6-da Birləşmiş Ərəb Əmirliklərinin Şarja şəhərində regionun ən böyük konsert salonlarından olan Əl-Məcaz amfiteatrında məşhur Azərbaycan əsilli müğənni və bəstəkar Sami Yusifin Şərq dünyasının tanınmış musiqiçiləri ilə birgə konserti keçirilib. 5 min tamaşaçının izlədiyi konsertdə Hindistan, Suriya, Livan, İran, Türkiyə və digər ölkələrdən musiqiçilərlə yanaşı, Azərbaycandan Əməkdar artist, tarzən Sahib Paşazadə də iştirak edib.

Konsertlə bağlı təəssüratlarını bölüşən tarzən belə bir layihədə iştirakından, Azərbaycan tarını təmsil etməsindən məmnunluğunu bildirib. Qeyd edib ki, konsertə dəvət Sami Yusifin menecerləri tərəfindən gəlib: “Onlar məni internetdə izlədikləri ifalarımdan bəyənərək seçdiklərini bildirdilər. Çox möhtəşəm konsert proqramı üçün musiqiçilərlə birlikdə 3 günlük məşqlərdən sonra səhnəyə çıxdıq. Layihədə 27 mahnı təqdim edildi. Bütün mahnılar notla ifa edilirdi və Sami Yusifin öz bəstələri idi. Konsert bitdikdən sonra tamaşaçıların xahişi ilə “Sarı gəlin” mahnısı yenidən səsləndi. Bu çıxış zamanı bir daha mahnıdan əvvəl Azərbaycan tarında muğam parçaları ifa etdim və Sami Yusif bu ifadan sonra “Sarı gəlin”in Azərbaycana məxsusluğunu qeyd edərək mahnını təqdim etdi”.

Əməkdar artist vurğulayıb ki, Şərq dünyasında tarın təbliğində belə böyük konsert layihələri və festivalların mühüm yeri var. Ötən il Səmərqənddə keçirilən “Şərq təranələri” XI Beynəlxalq Musiqi Festivalında Qran-pri mükafatına layiq görülən ifaçı daha sonra Çində keçirilən IV İpək Yolu Beynəlxalq Musiqi Festivalında da uğurla iştirak edib və müsabiqənin baş mükafatını qazanıb.

# Dünyanın qeyri-adi tikililəri siyahısında

İspaniyanın “Digitaltrends” rəqəmsal portalı dünyanın qeyri-adi tikililəri siyahısını dərc edib. Siyahıda Heydər Əliyev Mərkəzinin də adı var. Heydər Əliyev Mərkəzinin quruluşu barədə məlumat verən portal onun bir neçə il əvvəl dünyanın ən gözəl müasir binası seçildiyini yazır. Siyahıda Tokiodakı “W350” adlı taxta göydələn, Milandakı “Vertikal meşə”, Normandiyadakı “Benedikt abbatlığı”, Pekindəki “CCTV”nin baş ofisi, Tenerifedəki “Auditorium” və digər binaların adları da yer alıb.

**Bəhruz**



# Belarus televiziyasında Azərbaycan mətbəxi haqqında veriliş

**Belarus Azərbaycan İcmaları Konqresinin təşəbbüsü ilə bu ölkənin Milli Dövlət Teleradio Kompaniyasının (Belteleradiokompaniya) baxımlı verilişlərindən olan “Kulinariya diplomatiyası”nın növbəti buraxılışı Azərbaycan mətbəxinə həsr olunub.**



Proqramda Belarus Azərbaycan İcmaları Konqresi idarə heyətinin üzvü Gülnarə İmanova və təşkilatın fəal üzvlərindən Olesya Kosokina Azərbaycanın zəngin milli mətbəxi haqqında tamaşaçılara məlumat veriblər. Diqqətə çatdırılıb ki, 2 minə yaxın xörək növü olan Azərbaycan milli mətbəxi dünyanın ən qədim, zəngin və dadlı mətbəxlərindən biridir.

Verilişdə Azərbaycan kulinariyasının tarixinə və özünəməxsusluğuna görə qonşu xalqların mətbəxindən xeyli fərqləndiyi bildirilib, dolma, plov, piti və digər xörəklərimiz haqqında geniş danışılıb. Eyni zamanda Belarus Azərbaycan İcmaları Konqresinin Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi milli mətbəxin təbliğinə xüsusi önəm verdiyi vurğulanıb.

# “Türk İslam sənətləri” sərgisi açılacaq




Aprelin 17-də Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının muzey-sərgi kompleksində Türkiyə Cümhuriyyəti Bursa Böyükşəhər Bələdiyyəsinin inventarında olan “Türk İslam sənətləri” sərgisi açılacaq.

Sərgi Mədəniyyət və Turizm Nazirliyi, Bakı Yunus Əmrə İnstitutu və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının birgə təşəbbüsü ilə gerçəkləşəcək.

Aprelin 22-dək davam edəcək sərgidə müxtəlif janr və texnikalarda işlənmiş 80-dən artıq sənət əsərinin nümayişi nəzərdə tutulur.

**Baş redaktor:**
Vüqar Əliyev

Qəzet 1991-ci ildən çıxır.

**Ünvanımız:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Tel.:** (012) 431-57-72; 431-28-79; 430-16-79
**Tel/faks:** (012) 431-28-79;
**E-mail:** qazet@medeniyyet.az

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “B-Z” mətbəəsində çap olunmuşdur.

Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə olunur.

KAPİTAL BANKın
Yasamal filialı kod: 200037
VÖEN 9900003611
M/h AZ37NABZ01350100000000001944
SWIFT BIK AIIBAZ2X
H/h AZ98AIIB33080019443300232103
VÖEN 1300338641
Lisenziya №AB 022279
İndeks 0187

**Buraxılışa məsul:**
Fariz Yunisli

**Tiraj:** 5215

*Materiallardakı faktlara görə müəlliflər cavabdehdir.*